QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 020 (5740) **31 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı artır

## *İlham Əliyev: "Bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir"*



Səh 2

**Con Bolton Prezident İlham Əliyevə telefonla zəng edib**



2

**YAP İdarə Heyətinin iclası keçirilib**

4

**"Gənclərin üzərinə böyük məsuliyyət düşür"**



4

**Şahbuz şəhərində yeni Aviakassa tikilib**



5

**"Növbəti 5 ildə də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək"**



6

**Qaraçay-Çərkəz Respublikasının rəhbəri Azərbaycana gələcək**



6

9

**İşsizlərin ictimai işlərlə təmin olunması proqramı üçün 80 milyon manat ayrılıb**



7

**Əli Kərimli ifşa olunur: Rusiyadan bankdan kənar göndərilən pullar!**



8

**Kirayəçilikdən mənzil sahibliyinə gedən yol**



# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı artır

## *İlham Əliyev: "Bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir"*





Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi digər sosial qruplar kimi, əlillərin və şəhid ailələrinin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Şəhid ailələrinə diqqət və qayğının davamı olaraq, Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı məlum Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə verilir. Bu Fərman Azərbaycan vətəndaşına, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını qurban vermiş, sağlamlığını itirmiş insanlara olan münasibətin bir göstəricisidir. Prezident İlham Əliyev 2018-ci ilin aprel ayında keçirilən növbəti prezident seçkilərdən sonra belə bir Fərman imzalamaqla, bir daha göstərdi ki, ölkəmizdə şəhidlərə və onların ailələrinə, Qarabağ veteranlarına olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşü zamanı çıxışında bildirdiyi kimi, bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur: "Mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir". Məlumdur ki, artıq ödəmə prosesi başlanıb. 3 mindən çox şəhid ailəsi 11 min manatı alıb. Cənab Prezident diqqətə çatdırıb ki, ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz: "Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq".

### "MƏN BIR DAHA DEMƏK İSTƏYİRƏM Kİ, BUNDAN SONRA DA VƏTƏNDAŞLARIN SOSIAL MƏSƏLƏLƏRİ DAIM DİQQƏT MƏRKƏZİNDƏ OLACAQ"

Dövlət başçısı "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Dövlətimizin başçısının növbəti humanist təşəbbüsü olan bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırılıb. Onların içərisində, təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləmiş oldu. Prezident bildirib ki, bu, böyük vəsait tələb edir. Bu proqramın icrası üçün dövlət büdcəsindən, ümumilikdə, 135 milyon manat vəsait nəzərdə tutulur. Bunun kifayət qədər böyük məbləğ tələb etməsinə baxmayaraq, Prezidentin qeyd etdiyi kimi, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir: "Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq".

### "BİR DƏNƏ DƏ ŞƏHİD AİLƏSİ QALMAYACAQ Kİ, DÖVLƏT ONA EV VƏ YA MƏNZİL VERMƏSİN"

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi bu diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onlar, eyni zamanda, mənzillərlə də təmin olunurlar. "Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilmişdir" - deyən Cənab Prezident bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəyini bildirib: "Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin. Bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik".

Cəmiyyətimizin həssas təbəqəsi olan vətəndaşlara dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilir. Məlumdur ki, dövlət başçısının göstərişinə əsasən, məcburi köçkünlər üçün son illər ərzində yüzdən çox şəhərcik və qəsəbə tikilmişdir. Ötən il 5900 məcburi köçkünə mənzillər, fərdi evlər verilmişdir. Cənab Prezident bildirib ki, bu proses bu il də davam etdiriləcək: "Şəhid ailələrinə dövlət tərəfindən dəstək göstərilir. Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilmişdir. Yəni bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Mən bilmirəm, hansı başqa ölkədə öz vətəndaşlarına, ağır vəziyyətdə yaşayan vətəndaşlara, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilsin".

Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da, şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb.

### Con Bolton Prezident İlham Əliyevə telefonla zəng edib

Yanvarın 29-da ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. SİA-nın Prezidentin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib.

### Prezident İlham Əliyev görkəmli alim Toğrul Bağırovun vəfatı ilə əlaqədar başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nobel İrsi Fondunun sədri, BMT-nin qlobal enerji üzrə aparıcı eksperti, siyasi elmlər doktoru, professor Toğrul Adil oğlu Bağırovun vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

# İlham Əliyev: "Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək"

Regionların inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan veribdir. Bir sözlə, ölkəmizdə regionların inkişafı üzrə həyata keçirilən islahatlar, qəbul edilən dövlət proqramları bu sahənin tərəqqisi istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin edibdir. Bu sahədə dövlət siyasəti daha da gücləndirilir ki, regionların dayanıqlı sosial-iqtisadi inkişafı təmin edilsin.



Yanvarın 29-da Prezident İlham Əliyevin Sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda dövlət başçısı ölkəmizin sosial-iqtisadi inkişafının mühüm göstəricilərinə toxunaraq, bu xüsusda regionların sosial-iqtisadi inkişafını, xüsusi olaraq önə çəkib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan sabitlik və təhlükəsizlik məkanıdır: "Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində, bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur. Azərbaycanda aparılan iqtisadi-siyasi islahatlar və ölkəmizin güclənməsi bizə dünyada gedən riskli proseslərdən özümüzü qorumağa imkan yaratdı. Bir daha demək istəyirəm, bizim xarici siyasətimizin əsas məqsədi ondan ibarətdir ki, xaricdən gələn mümkün risklərin idarə olunmasına, azaldılmasına, aradan qaldırılmasına imkan versin. Biz buna nail oluruq".

### "Regionların sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi"

Dövlətimizin başçısı qeyd edib ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi: "Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü Proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək".

Dövlət başçısı, onu da vurğulayıb ki, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi: "O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında Birinci Proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz proqram sayca üçüncüdür. Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir".

Ölkə başçısı aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində, Azərbaycanın Dünya Bankının "Doing Business" hesabatında böyük sürətlə irəli getdiyini vurğulayıb: "Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm. İlk dəfə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində, son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin".

Prezident vurğulayıb ki, aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı: "15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

### "Azərbaycanda iş yerlərinin yaradılması daimi proses olmalıdır"

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, keçən il 118 min yeni iş yeri yaradılmışdır: "Bu, yaxşı rəqəmdir. İş yerlərinin yaradılması daimi proses olmalıdır və bu sahədə, əlbəttə ki, özəl sektor əsas rol oynamalıdır. Dövlətin dəstəyi ilə verilən hər bir kreditin tərkibində mütləq məruzə olunanda, "nə qədər iş yeri yaradılacaq" məsələsi də vardır. Məşğulluğun artırılması çox ciddi məsələdir.

Ölkə Prezidenti bəzi ölkələrdə əhali artımının olmadığını bildirərək, vurğulayıb ki, Azərbaycanda əhalinin sayı artır: "Son 15 il ərzində əhalimizin sayı 1,6 milyon nəfər artmışdır. Bu, əlbəttə ki, bizdən çox ciddi iş tələb edir. Bir daha demək istəyirəm ki, iş yerlərinin yaradılması prioritet məsələlərdən biridir. O bölgələrdə ki, işsizlik var, biz o bölgələrdə işsizliklə mübarizə aparmaq üçün ictimai işlər açmışıq".

Dövlət başçısı, həmçinin, bir daha qeyd edib ki, iş yerlərinin açılması daimi proses olmalıdır: "Biz Azərbaycanda mütləq iş yerlərini qorumalıyıq, həm dövlət qurumlarında, həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları, - bütün dövlət qurumlarına artıq bildirilib, - iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində, daha çox iş yerləri açmalıdır. Yenə də deyirəm, bu istiqamətdə proses müsbət gedir. Keçən il 118 min daimi iş yeri yaradılıb.

Bir sözlə, bizim bütün iqtisadi göstəricilərimiz, deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla, inamla inkişaf edib. Artan iqtisadi imkanlarımız bizə şərait yaratdı ki, sosial məsələlərə də çox böyük diqqət yetirək".

### "Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba daxil olubdur"

Dövlət başçısı qeyd edib ki, ölkəmiz kosmik dövlətə çevrilib: "Bu da bizim qürur mənbəyimizdir. Artıq üç peykimiz var. Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba daxil olubdur. Bu, həm innovasiyadır, həm biznesdir, həm də müasirlikdir. İnnovasiyalara gəldikdə, bu gün dünyada Azərbaycan məhsulu kimi tanınan "ASAN xidmət" brendi vardır. Bunu biz yaratmışıq, bizim daxili intellektual məhsulumuzdur və iradəmizin ifadəsidir. "ASAN xidmət" bu gün bir neçə ölkədə fəaliyyət göstərir və bu sistemi tətbiq edən ölkələrin sayı artmaqdadır. Ölkəmizdə on beş "ASAN xidmət" mərkəzi yaradılıb. Bu ilin sonuna qədər onların sayı 20-yə çatacaq. Bu mərkəzlərə 26 milyondan çox müraciət olunub. Əhali tərəfindən bəyənmə əmsalı təxminən 100 faizdir. "ASAN xidmət"də iki yüzdən çox xidmət göstərilir, tam şəffaf və heç bir pozuntusuz. Bu sahə, bildiyiniz kimi, həmişə böyük narahatlıq doğururdu. Vətəndaşlar haqlı olaraq şikayət edirdilər. İndi isə şikayətlər yoxdur, "ASAN xidmət"in yaradılması və uğurlu fəaliyyəti bizim siyasətimizi əks etdirir".

### "Vətəndaşlara xidmət bizim siyasətimizin əsas məsələlərindən biridir"

Prezident İlham Əliyev, həmişə olduğu kimi, bu konfransda da vətəndaşlara xidmət aparılan siyasətin prioritet istiqaməti olduğunu bildirib: "Azərbaycanda hər şey şəffaf olmalıdır, hər şey qanun çərçivəsində olmalıdır. Bu, bir daha onu göstərir ki, vətəndaşlara xidmət bizim siyasətimizin əsas məsələlərindən biridir".

Azərbaycan Prezidenti qeyd edib ki, məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur və bu gün də belədir: "Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilmişdir və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar. Yəni Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı, məhz buna söykənir".

Dövlət başçısı əlavə edib ki, son 15 il ərzində Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşayır: "Azərbaycan xalqı rahat yaşayır, qurur, yaradır. Hesab edirəm ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə - bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər".

### "Bizim iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur"

Prezident İlham Əliyev iqtisadiyyatımızın əsas sahəsi olan neft-qaz sektoruna da toxunaraq, bildirib ki, bu gün qeyri-neft sektorunu sürətlə inkişaf edir: "Biz bu təbii resurslardan çox səmərəli şəkildə istifadə edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir. Əgər bu layihələr icra edilməsə idi, biz bu qədər vəsait əldə edə bilməzdik. Çünki bizim ixrac imkanlarımız məhduddur, açıq dənizlərə çıxışımız yoxdur və bizə mütləq neft-qaz kəmərləri lazımdır. Bu kəmərlərin tikintisi həm maliyyə, həm siyasi, həm beynəlxalq əməkdaşlıq baxımından çox mürəkkəb və çətin layihələr idi. Biz bunu da bacardıq. Bu gün bu iki kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir".

Prezident İlham Əliyev deyib ki, hazırda Avropada ən böyük infrastruktur layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin tikintisi sürətlə gedir. Dörd layihədən ibarət olan bu meqalayihə, artıq son mərhələdədir. Dörd layihədən üçü istifadəyə verilib. Keçən il TANAP və "Cənub Qaz Dəhlizi"nin açılışı olmuşdur və bunlar tarixi hadisədir: "Biz neftdən, qazdan əldə edilmiş gəlirləri nəqliyyat sektoruna yönəltdik ki, Azərbaycan, nəinki bu bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin. Bu gün biz artıq buna nail oluruq. Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi tarixi layihədir. Bu, həddindən artıq vacib layihədir. Çünki bu, artıq bizə imkan verir ki, Azərbaycan ərazisindən böyük həcmdə yüklər Şərqdən-Qərbə, Qərbdən-Şərqə göndərilsin. Bunun sayəsində həm bizim geosiyasi əhəmiyyətimiz artacaq, həm də biz bundan daim valyuta qazanacağıq. Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması da böyük önəm daşıyır. Bu istiqamətdə də böyük işlər görülür. Əlbəttə ki, bu işlərin görülməsi genişmiqyaslı beynəlxalq əməkdaşlıq tələb edir. Azərbaycan bu sahədə də təşəbbüskar kimi öz müsbət rolunu oynayıb. Bu gün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan çoxdur və onların sayı daha da artacaq. Amma hər iki layihədə iştirak edən ölkə tək Azərbaycandır. Ona görə biz Avrasiyada çox strateji nəqliyyat mərkəzinə çevrilirik. Bakı-Tbilisi-Qars Dəmir Yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, bizim yol infrastrukturlarımız, müasir və müasirləşən infrastruktur, bütün bunlar son illər ərzində yaradılıb. Əgər biz infrastruktur layihələrinə diqqət yetirməsəydik, bu gün heç bir inkişafdan söhbət gedə bilməzdi".

**RƏFİQƏ KAMALQIZI**

# YAP İdarə Heyətinin iclası keçirilib

**Yanvarın 30-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda YAP İdarə Heyətinin 2018-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurası tərkibi haqqında 2018-ci ilə dair illik statistik hesabat, partiyanın 2018-ci il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2019-cu ilin birinci yarımilliyinə dair iş planı müzakirə olunaraq qəbul edilmişdir.**

İdarə Heyətinin iclasında 2018-ci ildə Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişafın davam etdiyi bildirilmiş, vurğulanmışdır ki, 2018-ci il müstəqil Azərbaycanın tarixində ən mühüm siyasi hadisə - Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi olmuşdur. Azərbaycanda Prezident seçkiləri elan edildikdən dərhal sonra Yeni Azərbaycan Partiyasının növbəti, VI Qurultayı keçirilmiş, Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilmişdir.

Yeni Azərbaycan Partiyası bütövlükdə seçki kampaniyasını çox uğurla həyata keçirmiş, Prezidentliyə namizəd cənab İlham Əliyevin təşviqat kampaniyası çərçivəsində ölkənin hər bir yaşayış məntəqəsini əhatə etməklə seçicilərlə möhtəşəm görüşlər keçirilmişdir. 11 aprel tarixi isə Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə inam və dəstəyinin möhtəşəm təntənəsi oldu. Azərbaycan seçicilərinin mütləq əksəriyyəti Ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamına - Azərbaycanın dinamik inkişafına və qüdrətli gələcəyinə səs verdi.

Hesabat dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirmiş, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirmişdir.

Yeni Azərbaycan Partiyası hesabat dövründə beynəlxalq əlaqələrinin daha da şaxələndirilməsi istiqamətində səylərini uğurla davam etdirmişdir. Müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilmiş, bu istiqamətdə bir sıra mühüm görüşlər keçirilmişdir.

Hesabatda daha sonra qeyd edilmişdir ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam etmiş, bu dövr ərzində 24 min nəfərdən çox yeni üzv qəbul edilmiş və beləliklə, partiya üzvlərinin sayı 732 min nəfəri keçmişdir. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil etmişdir.

İdarə Heyətinin iclasında YAP-ın ötən ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilmişdir. Qeyd olunmuşdur ki, 2018-ci ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 9 413 001 manat olmuşdur. Bunun 8 045 144 manatını üzvlük haqları, 1 367 857 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil etmişdir. Bundan əlavə, hesabat ilinin əvvəlinə partiyanın cari və ehtiyat hesablarında 6 446 014 manat olmuşdur.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 4 671 869 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əmək haqqının ödənilməsinə, 633 991 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 184 197 manatı ezamiyyə xərclərinə, 447 067 manatı inventarların alınmasına, 6 882 258 manatı Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının tikintisinə, 232 863 manatı təmir işlərinə, 453 255 manatı kommunal və təsərrüfat xərclərinə, 288 019 manatı yanacaq və avtomobillərə xidmət işlərinə, 71 125 manatı bank xidmətinə, 57 692 manatı dəftərxana xərclərinə, 33 035 manatı çap işlərinə, 212 817 manatı isə sair xərclərə sərf edilmişdir. Beləliklə, hesabat ilinin sonuna partiyanın cari hesablarında 1 937 374 manat qalmışdır.

# "Gənclərin üzərinə böyük məsuliyyət düşür"



"Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, Azərbaycan dövləti gənclərə hər zaman diqqət və qayğı göstərir: "Bu diqqəti simvolizə edən 2 fevral - Gənclər Günü xüsusi təntənə ilə qeyd olunur. Bu il də Gənclər Gününə hazırlıqlar başlayıb. İstər region, istər qeyri-hökumət təşkilatları, eləcə də gənclərlə işləyən qurumlar artıq bu günə bağlı silsilə tədbirlər keçirməyə başlayıblar. Ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Prezident İlham Əliyev gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Bu gün artıq Azərbaycan gəncliyi yerli, mərkəzi icra hakimiyyəti, təhlükəsizlik institutlarında, diplomatik kompuslarda, xaricdə fəaliyyət göstərən transmilli şirkətlərdə fəaliyyət göstərirlər. Artıq gənclərdə könüllülük institutu formalaşmağa başlayıb. Bu da mühüm əlamətdir.

Azərbaycanın bu günə qədər ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər dövlətimizin, uyğun olaraq fəaliyyət göstərən nazirliklərimizin əməyi ilə yanaşı, könüllülük qrupunun dəstəyi ilə də ərsəyə gəlir. İdarəetmə prinsipindən könüllülük prinsipinə gəlib çıxıb. Bu da ondan xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası özünü doğruldur. Bizim arxamızda güclü Azərbaycan dövləti dayanır. Belə olduqda, təbii ki, biz gənclərin də üzərinə böyük məsuliyyət düşür".

# Azərbaycanlı alim Toğrul Bağırov enerji diplomatiyası sahəsində görkəmli mütəxəssis idi



Bakı Nobel İrsi Fondunun sədri, Moskva beynəlxalq neft klubunun icraçı vitse?prezidenti, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü, Amerika-Rusiya İşgüzar Şurasının daimi üzvü, siyasi elmlər doktoru, professor Toğrul Bağırov 65 yaşında vəfat edib.

AZƏRTAC xəbər verir ki, Toğrul Bağırov 1954-cü ildə Bakıda anadan olub. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq münasibətlər fakültəsini bitirdikdən sonra keçmiş SSRİ Xarici İşlər Nazirliyində, SSRİ-nin ABŞ-dakı səfirliyində, BMT-nin Cenevrə nümayəndəliyində işləyib. Daha sonra intellektual biznes sahəsinə keçib, beynəlxalq konsaltinq şirkətinə başçılıq edib. 1994-cü ildə Rusiyanın yanacaq və energetika nazirinin xüsusi müşaviri, "Qazprom", "LUKoil", "Transneft", "Tatneft"in və digər enerji şirkətlərinin məsləhətçisi vəzifələrində çalışıb.

Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü olan T.Bağırov "Moskva neft klubu" fondunun icraçı vitse-prezidenti, Amerika-Rusiya İşgüzar Şurasının daimi üzvü idi. Azərbaycanda Nobel qardaşları irsinin bərpa edilməsi sahəsindəki xidmətlərinə görə İsveç Kralı XVI Karl Qustav görkəmli alimi birinci dərəcəli "Qütb Ulduzu" ordeni ilə təltif edib. Həmçinin T.Bağırov Fransanın "Fəxri legion" ordeni, Rusiyanın ikinci dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" medalı ilə də mükafatlandırılıb.

"1990-cı illərdə Rusiya-Amerika münasibətləri kontekstində Rusiyanın neft-qaz sektorunda islahatların beynəlxalq əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edən alim "Mejdunarodnaya jizn", "Amerika", "Neft Rossii" jurnallarının daimi müəlliflərindən biri, "Böyük səkkizlik" ölkələrinin energetika nazirlərinin birinci görüşü barədə külliyyatın 1988-ci il nəşri üzrə proqram komitəsinin əlaqələndiricisi olub. O, Rusiya Dövlət Duması və ABŞ Konqresi arasında dialoqa dəstək ictimai qrupunun üzvü, energetika üzrə Duma-Konqres böyük qrupunun yaradılmasının təşəbbüskarı idi. Alimin dərc olunmuş elmi işləri arasında "Rusiya və OPEC ölkələri - əməkdaşlığın perspektivləri", "Rusiyanın xarici siyasətində neft və qaz", "1990-cı illərdə Rusiyanın neft-qaz sektorunda iqtisadi dəyişikliklərin beynəlxalq əhəmiyyəti" mövzusunda monoqrafiyaları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

Ölkələr arasında enerji əməkdaşlığının qurulması və inkişaf etdirilməsində Toğrul Bağırov söz və nüfuz sahiblərindən biri idi. Onun maraqlar balansına hədəflənmiş bu missiyası ilə siyasətçilər də, iş adamları da razılaşır, təşəbbüs və təkliflərini qəbul edir, ondan həmişə məsləhətlər alırdılar. Ötən əsrin 90-cı illərinin ortalarında "Əsrin müqaviləsi" razılaşdırılarkən T.Bağırovun Azərbaycan ilə Rusiya arasında mühüm vasitəçilik xidmətləri olub.

# "Bu il 7 min ailə özünüməşğulluq proqramı ilə əhatə olunacaq"



Özünüməşğulluq proqramının icrası böyük ümidlər verir. Bu il 7 min ailə bu proqramla əhatə olunacaq. Baxarıq, imkan olarsa, daha çox ailə bu proqramla əhatə olunacaq. Beləliklə, hələ ki, iş tapa bilməyənlər özünüməşğulluq hesabına ailə büdcəsini təmin edəcəklər.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib. Dövlətimizin başçısı deyib: "Ailə Biznesinə Asan Dəstək - "ABAD" mərkəzləri yaradılır. Bu da çox müsbət haldır. Mən bu mərkəzlərin açılışında olmuşam və bu, "ASAN xidmət"in bir qoludur və çox müsbət təşəbbüsdür. Ailə biznesi bir istiqamət kimi Azərbaycanda, hesab edirəm ki, geniş vüsət ala bilər və almalıdır. Dövlət öz dəstəyini mütləq göstərir və göstərəcək. "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə bağlı mən giriş sözümdə öz fikirlərimi bildirdim. Bu il 5 mərkəzin açılması nəzərdə tutulur".

# Şahbuz şəhərində yeni Aviakassa tikilib






***Muxtar respublikada hava nəqliyyatı müasir tələblər səviyyəsində qurulub. Bu sahədə xidmətin hərtərəfli təşkili daim diqqətdə saxlanılır. Turizm bölgəsi olan Şahbuz rayonunda yeni Aviakassanın istifadəyə verilməsi də mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvarın 30-da Şahbuz şəhərində yeni Aviakassanın açılışı olub.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli çıxış edərək deyib ki, Naxçıvan Beynəlxalq Hava Limanında böyük quruculuq işləri aparılıb, uçuşların təhlükəsizliyi təmin olunub, mövcud xidmət potensialı daha da artıb. Hava limanında sərnişin və yük daşımaları müasir səviyyəyə çatdırılıb. Müasir memarlıq üslubunda tikilən Şahbuz Şəhər Aviakassası da bu sahədə görülən işlərin davamıdır. Mənşur Gülməmmədli Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdiyi qayğıya görə mülki aviasiya işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Şəhər Aviakassasının istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edərək deyib: Müstəqil Azərbaycanda hava nəqliyyatının inkişafı və hava daşımalarının müasir tələblər səviyyəsində qurulması üçün ardıcıl tədbirlər görülür. Bu işlərin tərkib hissəsi kimi Naxçıvan Beynəlxalq Hava Limanı da yenidən qurulub. Ötən dövrdə muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində görülən işlər davam etdirilib, Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında aviakassalar tikilib. Bu gün isə Şahbuz rayonunda müasir Aviakassa istifadəyə verilir. Şahbuz şəhərinin arxitekturasına xüsusi yaraşıq verən Aviakassada 9 yeni iş yeri yaradılıb.

Ali Məclisin Sədri bildirib: Həyata keçirilən bu tədbirlər ölkəmizin inkişafının göstəricisidir. Çünki hər bir ölkənin ümumi inkişafı yalnız bir sahədə deyil, bütün sahələrdə inkişaf təmin olunduğu zaman mümkün olur. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu ilə gedən Azərbaycanda hərtərəfli inkişaf təmin edilib. Ulu Öndərin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti bütün sahələrin inkişafını diqqətdə saxlayır. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hava nəqliyyatının beynəlxalq səviyyədə qurulması bunu bir daha təsdiq edir. Muxtar respublikada hava daşımalarının daha etibarlı təşkili sahəsində görülən işlərin davamı olaraq hazırda Naxçıvan Beynəlxalq Hava Limanında ikinci uçuş-enmə zolağı tikilir.

Ali Məclisin Sədri deyib: Əhalinin rifah halı yaxşılaşır, insanlar ölkəmizin və dünyanın müxtəlif yerlərinə səyahət edirlər. Şahbuz şəhərində yeni Aviakassanın istifadəyə verilməsi də insanların səyahətlərinin rahat təşkilinə hesablanıb. 25 mindən çox rayon sakini vaxt itkisinə yol vermədən öz yaşadığı ərazidən həm ölkəmizin, həm də dünyanın istənilən yerinə səyahət etmək üçün bilet ala biləcək.

Ali Məclisin Sədri Aviakassanın qurulmasında əməyi olanlara təşəkkür edib, xidmətin nümunəvi təşkili ilə bağlı tapşırıqlar verib.

Məlumat verilib ki, iki mərtəbədən ibarət Aviakassa binasının birinci mərtəbəsində gözləmə zalı, kassa, təhlükəsizlik otağı, texniki otaq və məlumat köşkü yerləşir. İkinci mərtəbədə isə Aviakassa işçiləri üçün müasir xidmət otaqları və mətbəx istifadəyə verilib. Binaya sürətli internet xətti çəkilib, kompüter dəstləri və POS-terminal, təhlükəsizlik kameraları və sensorlu növbə kartı verən xüsusi avadanlıq quraşdırılıb. Sərnişinlər təyyarə reysləri və boş yerlər haqqında əvvəlcədən məlumat əldə edə biləcəklər. Aviakassa fərdi istilik və mərkəzi soyutma sistemləri ilə təchiz olunub, həyətdə abadlıq işləri aparılıb.

Yanvarın 30-da Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, bu gün muxtar respublikamızda mədəniyyətin inkişafı təmin edilib. Son illər mədəniyyət müəssisələri üçün yeni binaların istifadəyə verilməsi, mədəni irsimizin qorunması, yeni muzeylərin, uşaq musiqi və incəsənət məktəblərinin yaradılması, kənd mərkəzlərində kitabxana və mədəniyyət evləri üçün binaların istifadəyə verilməsi, eləcə də xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin bərpası və öyrənilməsi, elmi konfransların keçirilməsi, görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı verilən fərman və sərəncamlar mədəniyyətimizin inkişafına mühüm töhfədir. Şahbuz Rayon Mədəniyyət Sarayı üçün yeni binanın inşası da mədəniyyətə göstərilən böyük qayğının bariz nümunəsidir. Natəvan Qədimova mədəniyyətə və incəsənətə göstərdiyi diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib, yaradılan şəraitə və göstərilən qayğıya əməli işlə cavab verəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və kollektivi təbrik edərək deyib: Şahbuz Rayon Mədəniyyət Şöbəsi 1936-cı ildə yaradılıb. Bu gün istifadəyə verilən Şahbuz Rayon Mədəniyyət Sarayında şöbənin fəaliyyəti üçün lazımi şərait yaradılıb. Mədəniyyət Sarayında Rayon Mədəniyyət Şöbəsinin, Mədəniyyət Sarayının və Xalq Teatrının fəaliyyəti təmin edilib. Hazırda Şahbuz rayonunun mədəniyyət müəssisələrində 4 dram dərnəyi, 4 yallı və folklor qrupları fəaliyyət göstərir. Yaradılan şərait imkan verəcək ki, kollektivlər ölkəmizin mədəni inkişafına öz töhfələrini versinlər.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin "Hər bir xalqın mədəniyyəti onu yüksəldir, dünyada tanıdır, mənəviyyatını zənginləşdirir", - fikirlərini xatırladaraq deyib: Bu gün Ulu Öndərin tövsiyələri Azərbaycan Prezidenti tərəfindən uğurla həyata keçirilir. Mədəniyyət sahəsində çalışanlara dövlət təqaüdlərinin və mükafatlarının verilməsi, onların təltif olunması, əməkhaqlarının artırılması, mədəniyyət saraylarının və evlərinin, klubların, kitabxanaların tikilib istifadəyə verilməsi ölkəmizin mədəni inkişafının göstəricisidir.

Ali Məclisin Sədri qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirib, Şahbuz Rayon İcra Hakimiyyətinə və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə rayonda müxtəlif mədəni tədbirlərin hazırlanıb həyata keçirilməsi ilə bağlı tapşırıqlar verib.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, binada Rayon Mədəniyyət Şöbəsi, Mədəniyyət Sarayı və Şahbuz Rayon Xalq Teatrı üçün müasir iş şəraiti yaradılıb. Binanın birinci mərtəbəsində proyektorla təmin edilmiş 224 yerlik tamaşa zalı, dekorasiya otağı, 4 qrim otağı, paltarsaxlama və texniki işçilər üçün otaqlar yerləşir. İkinci mərtəbədə Mədəniyyət Şöbəsi, Mədəniyyət Sarayı və Rayon Xalq teatrı üçün iş, məşq və idarəetmə otaqları vardır. Mədəniyyət Sarayında dram, yallı, bədii qiraət və toxuculuq dərnəkləri, "Batabat" instrumental ansamblı fəaliyyət göstərir. Saraya 2 kompüter və 1 fortepiano verilib. Tamaşa zalında "Batabat" instrumental ansamblının, muğam üçlüyünün, saz ansamblının və yallı kollektivinin çıxışı olub. Ali Məclisin Sədri ifaçılarla görüşüb, uğurlu çıxışlara görə onları təbrik edərək deyib: Müasir tələblərə cavab verən Mədəniyyət Sarayı Şahbuz rayonunun mədəni həyatında dönüş yaradacaqdır. Rayondakı mədəniyyət kollektivləri, musiqi məktəbləri, yallı qrupları, dram dərnəkləri Mədəniyyət Sarayının imkanlarından səmərəli istifadə etməli, tədbirlər keçirilməli, qorulanlar qorunmalıdır. Təqdim olunan nömrələr bir daha göstərdi ki, kollektivin davamçıları yetişir. Şahbuz rayonunda doğulmuş, lakin Naxçıvan və Bakı şəhərlərində yaşayan musiqiçilər, ifaçılar da dəvət olunmalı, onların Mədəniyyət Sarayında konsertləri keçirilməlidir.

Sonra xatirə şəkli çəkdirilib. Sarayda fərdi qazanxana və soyutma sistemi quraşdırılıb, həyətdə abadlıq işləri aparılıb.

Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Dövlət Arxivi üçün yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, Şahbuz Rayon Dövlət Arxivi üçün iş otağı və fond istifadəyə verilib, kompüter qoyulub. Fondda havalandırma sistemi quraşdırılıb. Sənədlər ayrı-ayrı rəflərdə cəmləşdirilib, onların təsnifatı və arxiv fondu daxilində qruplaşdırılması işləri aparılıb. Ali Məclisin Sədri arxiv sənədlərindən düzgün istifadə və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verib.

# Bəhruz Quliyev: “Azərbaycanın sosial-iqtisadi inkişafının təməl prinsiplərindən biri də sabitliyin qorunub saxlanılmasıdır”



Azərbaycanın sosial-iqtisadi inkişafının təməl prinsiplərindən biri də sabitliyin qorunub saxlanılmasıdır ki, ölkəmiz məhz bu amil üzərində tərəqqi yolunu davam etdirməkdədir.

Bu barədə Trend-ə açıqlamasında “Səs” Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin çıxışını şərh edərkən deyib.

Ekspertin sözlərinə görə, hər bir ölkənin sosial-iqtisadi inkişafı həmin ölkənin sabitliyinin qorunub saxlanılmasından, eləcə də xalqın rifah halının yaxşılaşdırılması yönündə atılan mütərəqqi addımlarından keçir ki, Azərbaycanda bu siyasət kifayət qədər öz əksini tapır:

“Bu ali mövqe ilə ölkəmiz daha böyük, daha uğurlu gələcəyə doğru inamla addımlamaqda davam edəcək. Əbəs deyil ki, cənab Prezident İlham Əliyev nitqində vurğuladı ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı artıqlaması ilə yerinə yetirildi, qarşıya qoyulan bütün vəzifələr icra olundu. Bu, həm də belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır ki, bundan öncə reallaşdırılan Dövlət proqramları dövründən başlayaraq, ölkəmiz dinamik inkişaf istiqamətində inamla irəliləməkdədir. Eyni zamanda, aparılan davamlı islahatlar, bu islahatlar nəticəsində əldə edilən uğurlar da sözügedən gerçəklikləri ehtiva etməkdədir. Bütün bunlar son 15 ildə Azərbaycan iqtisadiyyatının beynəlxalq arenada tutduğu ali mövqedən də görünməkdədir”.

B.Quliyev qeyd edib ki, Azərbaycanın təşəbbüskar və ideyaverici olaraq təqdim etdiyi və müxtəlif sahələri əhatə edən layihələrdə söz sahibi qismində çıxış etməsi, eləcə də digər mühüm məsələlərdə yüksək mövqeyə sahib olması dinamik inkişafımıza stimul verir:

“Təkcə iqtisadiyyatda rekord göstəricilərə imza atılması bu reallığın tərkib hissəsidir. Digər sahələrdə də dinamik temp uğurla davam etdirilir. Bayaq da qeyd etdiyim kimi, əldə edilən hər bir uğurun təməlində sabitlik məsələsi dayanır və bu sabitliyin əldə saxlanılmasında daha bir reallıq xalq-iqtidar vəhdətinin olmasıdır. Bu vəhdət, ilk növbədə, dövlətə olan inamdan, etibardan irəli gələn məsələdir ki, Prezident İlham Əliyev cənabları əldə edilən iqtisadi uğurları xalqın sosial həyatına doğru yönəldir. Dövlət başçısı bütün çıxışlarında qeyd edib ki, onun üçün prioritet vəzifə insan amilidir və siyasətinin mühüm istiqamətlərindən biri də sosial siyasətə üstünlüyün verilməsidir”.

Ekspertin fikrincə, ümumiyyətlə, hər bir siyasi rakurs bir-birinə bağlı olan uğur tandemlərindən qaynaqlanır ki, bunların hər biri Azərbaycan xalqının daha yaxşı yaşaması üçün vacib faktorlardandır: “Bu gün sual edə bilərik ki, bəs bu uğurları daha hansı amillərlə əsaslandıra bilərik? Baxın, təkcə son 15 ildə Azərbaycanda ümumi daxili məhsul 3,3 dəfə, sənaye potensialı 2,6 dəfə artıb. Eləcə də ötən müddət ərzində Azərbaycanın valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Azərbaycana 250 milyard dollar sərmayə qoyulub və bununla yanaşı, təqribən 2 milyon yeni iş yeri yaradılıb, 15 il ərzində maaşlar 7, pensiyalar isə 9 dəfə artıb. Bütün bunlar heç də asan başa gəlməyib və bu uğurların hər birində dövlət başçımızın böyük zəhməti, iradəsi və mütərəqqi siyasi baxışları dayanır. Digər rəqəmlərə də müraciət edə bilərik. Misal üçün, qeyd edilən faktlarla yanaşı, Azərbaycanda 15 il ərzində 3200-dən çox məktəb əsaslı təmir edilib və yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə isə 44 olimpiya mərkəzi yaradılıb, güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb”.

B.Quliyev bildirib ki, Prezident İlham Əliyev öz nitqində Azərbaycanı sabitlik, təhlükəsizlik məkanı adlandırıb və bu, bir reallıqdır ki, Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi aparılan siyasətin xalq tərəfindən dəstəklənməsidir: “Bütün bunlar Azərbaycanın daha güclü və qüdrətli dövlətə çevrilməsinə ən böyük şəraiti, imkanları yaradır. İstər regional, istərsə də bütövlükdə geosiyasi xəritədə Azərbaycanın mövqeyi hər kəsə aydındır və bu ali mövqe ilə ölkəmiz daha böyük, daha uğurlu gələcəyə doğru inamla addımlamaqda davam edəcək. Əlbəttə ki, dövlətimizin başçısı cənab İlham Əliyevin ətrafında daha da sıx birləşməklə”.

# “Növbəti 5 ildə də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək”



“Azərbaycan ötən 15 ildə özünün sürətli inkişaf dövrünü yaşayıb. Xüsusilə ölkə rəhbərliyi tərəfindən həyata keçirilən uğurlu daxili siyasət nəticəsində regionların sosial-iqtisadi inkişafı yüksək səviyyədə təmin edilib, kənd və qəsəbələr siması əsaslı şəkildə dəyişib.” Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, cənab İlham Əliyev 2003-cü ildə seçicilərin böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçildikdən sonra qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilib: “Məhz möhtərəm Prezidentimizin təşəbbüsü ilə 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı xüsusi olaraq diqqət mərkəzində saxlanılıb. Bu mənada ötən 15 ildə 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən 3 Dövlət Proramı qəbul olunub və müvəffəqiyyətlə icra edilib. Nəticədə regionlarda böyük infrastruktur layihələri həyata keçirilib, kənd və qəsəbələrə yeni yollar, işıq, qaz xətləri çəkilib, biz sözlə, insanların rahat yaşaması üçün zəruri olan bütün tədbirlər görülüb”.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, bu günlərdə keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda dövlətimizin başçısı xüsusi olaraq bildirib ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edilib, 5 il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirilib: “Bəli, Dövlət Proqramının icrası ilə bağlı ötən 5 ildə qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilib. Ümumiyyətlə, son 15 ilin statistikası belə deməyə əsas verir ki, Azərbaycan inamla inkişaf edib. 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb, 3200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, 44 olimpiya mərkəzi yaradılıb. Ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, ixrac 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb. 2 milyon yeni iş yeri yaradılıb. Regionların inkişafında xüsusi payı olan kənd təsərrüfatı sahəsində də böyük artımlar müşahidə edilib. Belə ki, 2015-ci ildə cəmi 35 min ton pambıq yığıldığı halda, ötən il 233 min ton pambıq tədarük edilib. Ötən il 13 rayonda 6200 ton tütün yığılıb. Əgər 2004-cü ildə 55 min ton üzüm yığılmışdısa, keçən il bu rəqəm 167 min tona bərabər olub. Təbii ki, ayrı-ayrı sahələrlə bağlı kifayət qədər belə müsbət rəqəmlər, göstəricilər qeyd etmək olar. Bütün bunlar bir daha sübut edir ki, qəbul və uğurla icra olunan 3 Dövlət Proqramının regionların sosial-iqtisadi inkişafında müstəsna yeri var”.

Vüqar Rəhimzadə əlavə edib ki, regionların sosial-iqtisadi inkişafı bundan sonra da dövlət başçısının xüsusi nəzarətində olacaq: “Möhtərəm Prezidentimizin növbəti Fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi bunun bariz nümunəsidir. Hesab edirəm ki, növbəti 5 ildə Dövlət Proqramı ilə bağlı qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək”.

# Sevinc Hacıyeva: “Atamın müqəddəs xatirəsinə göstərilən ehtiram hamımızda məmnunluq doğurur”

Haqqın öz yerini tutması, ədalətin zəfər çalması həmişə razılıq və xoş hisslər doğurur. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına edilən dəyişikliklər və hərbi qulluqçuların vərəsələri ilə Prezident Sarayında keçirdiyi görüşdəki çıxışı bu sahədə haqqın, ədalətin öz yerini tutması, torpaqlarımızın ərazi bütövlüyü uğrunda qurban gedən Vətən müdafiəçilərinə verilən çox böyük dəyər, onların xatirəsinə göstərilən yüksək ehtiram kimi dəyərləndirilir.

“1993-cü il martın 3-də Ağdərə rayonu uğrunda gedən döyüşlərdə şəhid olan atam Şakir Hacıyevin əziz xatirəsinə göstərilən ehtiram nümunəsi qəlbimizi iftixar hissi ilə doldurdu”, - deyə mərhum döyüşçünün qızı Sevinc Hacıyeva AZƏRTAC-ın müxbirinə bildirib: “Anam da, qardaş-bacım da bu duyğusal münasibətə görə çox mütəəssir olublar. Mən də Prezident Sarayında keçirilən həmin görüşün iştirakçısıyam. Doğrudan da şəhidlər ölmürlər, onların əməlləri, yolunda qurban getdikləri amallar həmişə yaşayır. Doğulandan beşiyə qədər adı səninlə qoşa çəkilən, qanı damarlarında çağlayan, nəfəsini, ruhunu həmişə yanında hiss etdiyim atamın nakam taleyi, şəhidliyə qovuşan ömrü kimi biganə qoya bilər ki?



Əlbəttə, ana vətənimiz uğrunda şəhid olanlara, onların ailə üzvlərinə göstərilən münasibətdən çox məmnunuq. Bu, yalnız mənim yox, bütün ailə üzvlərimizin fikridir.

Hər dəfə adı anılanda, hər dəfə ailə məclislərində, qohum-qardaş bir yerə yığılanda onunla bağlı xatirələr danışılanda elə bilirik ki, atam təzədən qayıdır, bizi qolları arasına alıb bağrına basır, mehrəm və doğma əli saçımızı sığal çəkir. Prezident Sarayında keçirilən görüş zamanı mənim atamla, onun müqəddəs ruhu ilə növbəti görüşüm oldu. Dövlət başçısı İlham Əliyev Azərbaycan torpaqlarının qorunması uğrunda canını fəda edən şəhidlər haqqında danışdıqca atamın əziz xatirəsi gözlərim önündə canlanırdı”.

“Xalqımız həyatda hər şeydən əziz olan canını torpaq uğrunda qurban verən şəhidlərin xatirəsini çox uca tutub. Onlara verilən ən böyük dəyər adlarının uca tutulmasıdır. Prezidentin verdiyi Fərmana əsasən şəhid hərbi qulluqçulara birdəfəlik ödəmələrin verilməsi onların ailə üzvlərinə göstərilən maddi dəstəkdir. Bütün bunlara görə ailə üzvlərimiz dövlətimizin rəhbəri İlham Əliyevə öz dərin minnətdarlığını bildirir”, - deyə şəhid Şakir Hacıyevin vərəsəsi Sevinc xanım bildirib.

## Qaraçay-Çərkəz Respublikasının rəhbəri Azərbaycana gələcək



Fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının rəhbəri Rəşid Temrezovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gələcək. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində görüşlər keçiriləcək, ölkəmizlə Qaraçay-Çərkəz Respublikası arasında iqtisadi əməkdaşlığın hazırkı vəziyyəti və genişləndirilməsi imkanları müzakirə ediləcək. Qaraçay-Çərkəz Respublikası nümayəndə heyəti səfər zamanı bir sıra müəssisələrdə də olacaq.

# Əli Kərimli ifşa olunur: Rusiyadan bankdan kənar göndərilən pullar!

*AXCP üzvü Vidadi Rüstəmlinin qanunsuz yollarla əldə etdyi pullar hara gedirmiş?*



Dünən Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Təzəxan Mirələmli şahid qismində dindirilibləр. SİA-nın əməkdaşının verdiyi məlumata görə, məhkəmə iclasında Əli Kərimli və Rusiyanın ölkəmizdəki səfirliyinin nümayəndəsi, eləcə də KİV-lərin nümayəndələri iştirak ediblər.

Heydər Əhmədov məhkəmədə ifadəsində göstərib ki, 2016-cı ilin dekabr ayından yaşayış qaydalarını pozduğuna görə Rusiyadan Azərbaycana deport olunub, bundan sonra ailəsinin dolanışığı məqsədilə ABŞ dollarının banklardan kənar köçürülməsi işi ilə məşğul olub. ABŞ dollarının köçürülməsi üçün bacısının həyat yoldaşı Aslan Qəhrəmanovun ona Rusiyadan göndərdiyi təxminən 15.000-20.000 ABŞ dollarını gün ərzində Aslan tərəfindən ona adları vatsap vasitəsilə göndərilən şəxslərlə 5 №-li xəstəxananın qarşısında görüşərək onlara çatdırıb və etdiyi xidmətə görə aylıq 500 manat qazancı olub.

Heydər Əhmədov ifadəsində həmçinin qeyd edib ki, sonradan tanıdığı Vidadi Rüstəmlinin anket məlumatlarını da Aslan 2017-ci ilin may ayında vatsap vasitəsi ilə onun istifadə etdiyi mobil telefona göndərib. Həmin vaxtı Aslan ona yazaraq Vidadiyə 37 min ABŞ dollarına yaxın pul verməyini bildirib. Aslanla telefon yazışmalarından sonra səhəri gün Vidadi Rüstəmli ilə 5 №-li xəstəxananın qarşısında görüşərək 37 min ABŞ dollarına yaxın pulu ona verib. Bundan sonra Vidadi Rüstəmli onunla vatsap vasitəsi ilə əlaqə saxlayıb, ötən ilin aprel ayına qədər olan müddət ərzində ayda bir dəfə olmaqla onun adına Rusiyadan göndərilmiş 5.000 ABŞ dollar pulu həmişə olduğu kimi 5 №-li xəstəxananın qarşısından gəlib götürüb.

Ceyhun Hüseynov məhkəmədə ifadəsində göstərin ki, təxminən 3 ilə yaxın müddətdir ki, Rusiya vətəndaşı olan və Moskvada yaşayan Salman adlı şəxsin müxtəlif insanlar vasitəsi ilə Rusiyadan Bakıya göndərdiyi pul vəsaitini qəbul edir, daha sonra Salmanın tapşırığına əsasən dediyi şəxslərə çatdırır. Buna görə də Salman hər ay ona 500 ABŞ dolları pul verir. Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvü Vidadi Rüstəmli də Salmanın göndərdiyi pullardan bir ildən artıq müddət ərzində hər ay mütəmadi olaraq gəlib hər dəfə 4.000-5.000 ABŞ dolları pul götürün. C.Hüseynov vurğulayıb ki, hətta bir dəfə Vidadi ondan 50.000 ABŞ dolları məbləğində pul götürüb.

Rauf İsgəndərov isə məhkəmədə dindirilərkən bildirib ki, bank əməliyyatı olmadan ABŞ dollarının köçürülməsi işi ilə məşğul olur. Rauf İsgəndərov həmin işi hazırda Moskva şəhərində yaşayan atası Sahibin vasitəsi ilə qurduğunu qeyd edərək qanunsuz qaydada köçürmə yolu ilə pul verdiyi şəxslərdən birinin də Vidadi Rüstəmli olduğunu qeyd edib. R.İskəndərov istintaq zamanı verdiyi ifadəni təsdiq edərək bildirib ki, təxminən 2016-cı ilin əvvəllərindən 2017-ci ilin sonlarınadək AXCP üzvü Vidadi Rüstəmliyə hər dəfə müxtəlif məbləğlərdə pullar verib. Vidadiyə demək olar ki, 2016-cı ilin mart ayından etibarən Gədəbəy rayonunda ayda bir dəfə, bəzən isə ayda iki dəfə olmaqla müxtəlif məbləğlərdə pullar verib. Verdiyi ən az məbləğ 300-400 ABŞ dolları, ən çox isə 3.000 ABŞ dolları olub.

AXCP-nin nəzarət-təftiş komissiyasının üzvü olan Təzəxan Mirələmli ifadəsində göstərmişdir ki, Polşada yaşayan Elturan Rüstəmli onun facebook səhifəsinə yazıb Əli Kərimlinin çıxışlarının niyə görə keyfiyyətsiz olduğunu soruşub, ona deyib ki, ola bilsin ki, kameralar köhnədir. Bundan sonra Elturan ondan xahiş edib ki, bir nəfər tanışı ilə vebkamera və mikrofon göndərəcəkdir, həmin şəxslə görüşüb əşyaları ondan alıb Əli Kərimliyə vermək lazımdır. 2018-ci ilin mart ayında Elturanla əvvəldən vaxtını təyin etdikləri kimi Vidadi ilə Gənclik metrostansiyasının yanında görüşüb, vebkamera və mikrofonu ondan alaraq Əli Kərimliyə çatdırıb.

Məhkəmə iclası zamanı təqsirləndirilən şəxs Vidadi Rüstəmli Heydər Əhmədovdan 37 min ABŞ dolları, Ceyhun Hüseynovdan isə 50 min ABŞ dolları məbləğində pulları aldığını etiraf edib. Məhkəmənin növbəti iclası fevralın 1-nə təyin edilib.

# QHT-lərə Dövlət Dəstəyi Şurası hesabat verib




Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2018-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat konfransı keçirib. SİA xəbər verir ki, toplantıda Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, ötən il maliyyələşən layihələrin sayı 576, ayrılan vəsait 3999105 manat təşkil edib. 2018-ci ildə maliyyələşən layihələrin icrasına 2067 nəfər cəlb olunub. Bunlardan 661 nəfər daimi, 1406 nəfər müvəqqəti işçilərdir. Layihələr çərçivəsində keçirilən tədbirlərə ümumilikdə 88903 nəfər cəlb olunub. Qeyd edilib ki, il ərzində 491 təlim keçirilib və bu təlimlərdə 10878 nəfər iştirak edib. 1585 müxtəlif tədbir keçirilib, 34 adda kitab, 36 adda kitabça, 213 adda buklet, 212 adda digər materiallar (posterlər, təqvimlər və s.) hazırlanıb. 107 televiziya verilişi, 36 sosial-çarx, 34 film, 11 sayt yaradılıb və 21 digər növ tədbirlər təşkil olunub.

2018-ci il ərzində 2 qrant müsabiqəsi təşkil edilib və yüzlərlə QHT-nin layihəsi Şura tərəfindən maliyyələşdirilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş 30 layihə maliyyələşib. Münaqişə ilə bağlı 48 tədbir, 4 təlim keçirilib, 2 adda kitab, 3 adda kitabça,14 adda buklet və digər nəşr məhsulları, 1 sayt, 1 sosial çarx və 1 tamaşa hazırlanıb, 5 film çəkilib. Bu istiqamətdə Macarıstanın Debreçen, Gürcüstanın Tbilisi, ABŞ-ın Nyu-York şəhərlərində müxtəlif tədbirlər keçirilib.

Həmçinin Şuranın "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində "Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair təşəbbüslər" istiqaməti üzrə 11 qeyri-hökumət təşkilatının layihəsinə 79000 manat qrant vəsaiti ayrılıb. QHT-lərin təklif və şikayətlərinin qəbulu üçün Şuranın 1672 nömrəli "Qaynar xətt"inə 2018-ci ildə 17 müraciət daxil olub. Daxil olan hər bir müraciət araşdırılıb və müvafiq tədbirlər görülüb.

Tədbirdə, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Konstitusiya" Araşdırmalar Fondu "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinqini həyata keçirildiyi bildirilib. Hesabat məruzəsi ilə bağlı çıxış edən QHT rəhbərləri və digərləri Şuranın 2018-ci ildəki fəaliyyətinin məhsuldar olduğunu bildiriblər.

# "Boltonun zəngi ABŞ-ın Azərbaycanla əməkdaşlığa önəm verməsinin göstəricisidir"

***"ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi məzmuna və zamanına görə çox diqqətçəkici hadisədir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.***



Boltonun telefon zənginin bir sıra maraqlı geosiyasi hadisələrlə üst-üstə düşdüyünü deyən baş redaktor söyləyib ki, artıq Azərbaycanın dünyada rolu sürətlə möhkəmlənir, ölkəmizin dünyada sülhyaratma əməliyyatlarında iştirakının effekti yüksəlir, regionda və Avropanın enerji təhlükəsizliyinə real töhfələr verir: "Azərbaycan Prezidentinin səyləri ilə Dağlıq Qarabağ probleminin həllinin real mərhələyə çıxması, ölkəmizin regional və qlobal müttəfiqlərinin artması, Azərbaycanın Avrasiyada strateji tranzit məkan kimi daim güclənməsi, İslam və Qərb sivilizasiyalarını yaxınlaşdırmaqda önəmli rolunun artması, dünya üçün çox maraqlı olan post-neft inkişaf modelinin yaradılmasını çox uğurla aparması və digər faktorlar kənardan çox cəlbedici görünür və Azərbaycanın dünya, region üçün nə qədər önəmli ölkə olduğunu daha aydın göstərir".

A.Quliyev vurğulayıb ki, Azərbaycanın sülh və təhlükəsizlik üçün təsirli ölkə olması, ölkəmizin sabit və dinc inkişafı, Azərbaycan Prezidenti kimi etibarlı bir tərəfdaşla mühüm məsələlər ətrafında işbirliyinə getmək ABŞ-ın siyasətinə uyğundur: "Con Boltonun Azərbaycan Prezidentinə zəngi ABŞ-ın Azərbaycanla əməkdaşlığı davam etdirməyə çox önəm verməsinin göstəricisidir. ABŞ-ın Dağlıq Qarabağ probleminin dinc yolla həllində maraqlı olduğu bir sıra tutarlı arqumentlərə görə şəksizdir. Bu istiqamətdə ABŞ-Azərbaycan əməkdaşlığının daha da dərinləşməsinin regionda ümumi təhlükəsizlik üçün çox vacib olmasına ABŞ da lazımı dəyəri verir".

Ötən il ABŞ dövlət müşavirinin Ermənistana səfəri zamanı Azərbaycan torpaqlarının mütləq qaytarmalı olduğu barədə açıq mesajlar verməsini xatırladan siyasi ekspert qeyd edib ki, bu gün Boltonun Prezident İlham Əliyevlə Qarabağ problemini telefonda məxsusi müzakirə etməsi Azərbaycanın Qarabağ diplomatiyasının və bütünlükdə təhlükəsizlik siyasətinin ABŞ tərəfindən dəstəklənməsinin göstəricisidir. A.Quliyev əlavə edib ki, bu zəng regionda Azərbaycana və Prezident İlham Əliyevə həm şəxsi, həm də geosiyasi kontekstdə etibarlı və perspektivli tərəfdaş kimi baxıldığının aşkar ifadəsidir.

***Nailə Məhərrəmova***

# Xarici turistlər Azərbaycanda alman irsinə göstərilən tolerant münasibətdən məmnun qalıblar



"Gəncə Regional Qadın Mərkəzi" İctimai Birliyinin KODA İcma Təhsil Mərkəzi (Gürcüstan) ilə birgə həyata keçirdiyi "İnkişaf və Əməkdaşlıq üçün Vətəndaş Cəmiyyəti: Azərbaycan və Gürcüstanın sərhəd bölgələrində turizm potensialının artırılması" layihəsi çərçivəsində "Alman irsi" üzrə beynəlxalq tur təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, beynəlxalq turun təşkil edilməsində əsas məqsəd dünyanın müxtəlif ölkələrinin nümayəndələrini Gəncə-Qazax zonasının turizm imkanları ilə tanış etmək və regiona turist axınının başlanmasına dəstək verməkdir. Beynəlxalq turda ABŞ, Almaniya, Rusiya və Gürcüstan vətəndaşları iştirak ediblər. Beynəlxalq turun iştirakçıları Şəmkir və Göygöldə alman irsi və tariximiz ilə tanış olublar. Turistlər hər iki şəhərdə tarix-diyarşünaslıq muzeylərinə baş çəkib, vaxtilə almanların saldıqları küçələri gəzib, Lüteran kilsələrində olub, alman evlərinin arxitekturasına baxıblar.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Tramp Türkiyəni bölgənin açar dövləti kimi qəbul edir

Türkiyə dövləti, neçə onillərdir ki, ona qarşı bütün cəbhələrdə müharibə aparan və öz şərtlərini diktə edən beynəlxalq güclərə əzələ nümayiş etdirməyə başlayıb. İndi Türkiyə, təkcə NATO-dakı üzvlüyü və yerləşdiyi regiondakı mövqeyi ilə önə çıxmır. Artıq Türkiyə öz gücü ilə, güclü dövlət xarizması ilə dünya siyasətində boy göstərməyə başlayıb. Qərbdəkilərin xoşuna gəlsə də, gəlməsə də.

Rəcəb Tayyib Ərdoğan, son bir neçə ildə Qərbdəki Türkiyə düşmənlərinə qarşı atdığı son addımları ilə həm əzələ nümayiş etdirdi, həm də Türkiyəni Osmanlı dövründəki gücünə doğru qaytarmağa başladı. Bu fikirlərim qətiyyən Ərdoğanın təriflənməsi üçün deyilməyib. Bu, sadəcə, ortada olan real faktdır. Dünya siyasətində "itin yiyəsini tanımadığı" bir zamanda Türkiyənin dünya siyasətindəki real siyasi tablosundan danışıram. Hə, orası bir başqa məsələ ki, Türkiyənin daxilində demokratik institutların yerini itirməsi, qardaş ölkədə "hər şey Ərdoğandır" prinsipinin yavaş-yavaş önə çıxması barədə fikirlər, artıq səslənməkdədir. Üstəgəl, Ərdoğanın son illərdə həddindən çox Vladimir Putinə doğru "stavka" etməsi, bir sıra Latın Amerikası ölkələrindəki uğursuz diktatorlara "atalıq etməsi" də ortada olan faktlardandır. Amma əsas məsələ odur ki, Türkiyə bir dövlət olaraq, ikiüzlü Qərb diplomatiyasının Ankara üçün qurduğu bütün tələbləri bir-bir aradan qaldırmağı bacardı. Qərbin əlaltısı və "sözəbaxanı" imici artıq Türkiyə üçün yad fikirdir.

Fikir verin, keçən əsrin ikinci yarısından sonrakı zəif, gücsüz, iqtisadiyyatı və maliyyəsi olmayan əzik bir Türkiyədən əsər-əlamət yoxdur. Hazırda Avropa və ABŞ-ın qarşısında güclü bir Türkiyə modeli dayanıb. Artıq o dövrün Türkiyəsi tarixin arxivinə gömüldü. Sübut istəyirsiniz? Buyurun: Donald Trampın müşaviri Con Bolton İsraildə olarkən, Türkiyə barədə yanlış bir neçə fikir səsləndirdi, cavabında Ərdoğan onu Ankarada qəbul etməkdən imtina etdi.

Elə bir müddət əvvəl, R.T.Ərdoğan Suriya məsələsi ilə bağlı D.Trampla telefon danışığında, onunla elə bir tərzdə müzakirə apardı ki, Ağ Evin sahibi Türkiyənin bölgə üçün açar rolunu oynadığına açıqca əmin oldu. Artıq itaətkar Ankaradan əsər-əlamət yoxdur. Bu da SÜBUT! Əgər bu addımı 1990-cı və 2000-ci illərdə hansısa Türkiyə rəhbəri etsəydi, bunun bədəlini ağır ödəyərdi. Həm də bunun hesabını bütün Türkiyəyə ödətdirərdilər. Amma bu gün güclü bir Türkiyə faktoru ortadadır.

2003-cü ildən sonrakı Türkiyə, Avropa İttifaqı və ABŞ üçün əsl sürpriz oldu desəm, səhv etmərəm. Çünki bunun doğru olduğunu Qərbdəki əksər aparıcı siyasətçilər də açıqca etiraf edirlər. Baxın, 70 ilə yaxındır ki, Avropa İttifaqının qapısı önündə başını aşağı dikib, növbə gözləyən Türkiyə, artıq acı bir tarix kimi xatırlanır. Çünki Osmanlı nəvələrinin bu xrisitian klubuna ehtiyacı yoxdur. Tam əksinə, indi Avropanın Türkiyəyə böyük ehtiyacı var.

Həm də gizlədiləsi heç nə qalmayıb axı ortada. Hər şey sadə şəkildə hamıya məlumdur. Türkiyə, həm ona qarşı olan oyunları pozdu, həm də bölgədəki OYUN QAYDALARINI dəyişdi. Cəmi bir neçə il əvvəl, hər gün şəhid əsgərlərinin tabutları ilə gününü açan, şəhid analarının ah-naləsi ilə sarsılan ölkə getmiş, yerində sabit, güclü və diktə edən bir türk dövləti ortaya çıxmışdır. Ən önəmlisi də budur. Məncə, R.T.Ərdoğanın ən böyük qələbəsi PKK-nın qanlı caynaqlarını Türkiyə ərazisindən kəsməsi oldu. Hansı yollarla, hansı şərtlərlə Ərdoğan buna nail oldu? Bu, artıq sirli pərdədir, vəssalam!

Türkiyənin yeni güc mərkəzi olmasına qarşı hansı əngəlləri törətmədilər ki? Rusiya ilə yaradılan təyyarə krizisindən tutmuş, Türkiyəyə ağır iqtisadi zərbə vurmaq üçün dolların "havaya uçurulması"na qədər hər yola baş vurdular. Məqsəd bəlli idi: gerçəkdən güclü bir Türkiyənin, nəinki regionda, həm də dünya birliyində əsas söz sahiblərindən birinə çevrilməsinə, boy göstərməsinə qarşı "dur" demək. Amma bu qüvvələr onda ayıldılar ki, qüdrətli Türkiyəyə "dur" əmri verməK qeyri-mümkündür.

Türkiyəni neçə onillərdir ki, qanda boğan, xarici güclərin əlində türk xalqına qarşı şərəfsiz və həm də qanlı bir alətə çevrilən PKK, bu gün başı əzilən ilan kimi qıvrılır. Avropadakıların, xüsusi ilə, Ağ Evin on illərdir ki, silah və pul ilə təmin etdiyi, hər vəchlə bölgənin cəlladı kimi ön planda saxladığı PKK, məhz Türkiyə rəhbərliyinin qətiyyətli siyasi planları ilə ölü hala gətirilib. Bir zamanlar Türkiyənin içərisində özünə yuva quran PKK, bu gün Şimali İraqda belə türk bombalarının "istisini" hər zaman üzərində hiss edir və sadəcə, bir kəlmə: Türkiyə artıq təkcə regionda əsas oyunçulardan biri yox, ən vacibidir. Türkiyə bölgənin açar ölkəsidir.

# Kirayəçilikdən mənzil sahibliyinə gedən yol



***Azərbaycanda həyata keçirilən sosial siyasətin əsasında əhalinin sosial rifah halın yaxşılaşdırılmasının dayandığını sübut edən bir sıra faktlar var. Xüsusilə də son atılan addımların əksəriyyətinin bu istiqamətdə atılması ölkəmizdə vətəndaş amilinin ən üst pillədə durduğunun göstəricisidir. Aztəminatlı, şəhid ailələri, müharibə əlilləri və digər vətəndaşlarımızın sosial problemlərinin həlli istiqamətində verilən qərarlar, imzalanan sənədlər bunun bariz göstəricisidir. Bu qərarlardan biri Prezident İlham Əliyev tərəfindən yanvarın 25-də təsdiq edilən "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası"dır. Qaydalara əsasən, kirayəçilər ev sahibi ola biləcəklər.***

## Bəs görəsən yeni mexanizmlər kirayəçilər üçün nə vəd edir?

Yeniliklərin icra mexanizmi ilə bağlı mühüm məqamlarla bağlı saytımıza açıqlama verən iqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası" ölkəmizdə sosial kirayə fondunun yaradılması deməkdir.

Onun sözlərinə görə, yeni mexanizmlərə əsasən ölkə vətəndaşları ipoteka kreditləri ilə yanaşı həmçinin evləri kirayə götürmək hüququna da malik olacaqlar: "Yeniliklərə əsasən, artıq mənzili kirayə götürənlər ona sahib olmaq imkanı əldə edəcəklər. Bununla da mənzili kirayə edən vətəndaşımızın aylıq ödənişləri evin xərcindən çıxılacaq".

Müqavilə bağlanandan 3 il sonra kirayəçinin mənzilin sahibinə çevrilmək imkanı qazanacağını dilə gətirən ekspert söyləyib ki, istənilən vətəndaş həm daha çox ödəniş etməklə müqaviləyə vaxtından əvvəl xitam verə və ya ödənişi davam etdirib 25 il ərzində ona sahib ola biləcək: "Təsdiq olunmuş qaydalara görə, müraciətlər elektron sistemlə həyata keçiriləcək. Müraciətlər növbəlilik əsasında qeydiyyata alınıb baxılacaq. Fond beş iş günü müddətində kirayə müqaviləsinin bağlanmasına dair razılıq və ya əsaslandırılmış imtina barədə qərar qəbul edəcək, 10 iş günü müddətində isə kirayə müqaviləsinin rəsmiləşdirilməsi yekunlaşacaq. Bundan sonra üç iş günü müddətində kirayəçi aylıq ödənişin ən azı 12 mislini əvvəlcədən Fondun hesabına ödəməli olacaq. Bu məbləğ Fondun hesabına ödəndiyi andan kirayə müqaviləsi qüvvəyə minəcək".

## "Aylıq kirayə haqları fondun ev üçün çəkdiyi xərclərə əsasən müəyyənləşəcək "

V.Bayramov bildirib ki, yalnız İpoteka və Kredit Zəmanət Fondu-



nun tabeçiliyində olan mənzillər kirayə veriləcək: "Vətəndaşlarımız fondun təklif etdiyi şərtlər ilə mənzili kirayəyə götürmək imkanı qazanacaqlar. Bu zaman mənzillərin aylıq kirayə haqları fondun ev üçün çəkdiyi xərclərə əsasən müəyyənləşəcək. Fondun nizamnamə kapitalı 466 milyon manatdır və yeniliklərə əsasən, fondun kapitalı və fondun emissiya etdiyi istiqrazlardan daxil olan vəsait hesabına evlər alınacaq. Fond öz vəsaiti hesabına aldığı və ya onun mülkiyyətinə keçən mənzilləri kirayə kimi təklif edə bilər. Mənzillər tam təmirli, habelə elektrik enerjisi, qaz və su ilə tam təchiz olunmuş olmalıdır".

"Vaxtı keçmiş öhdəlikləri olanlar kirayə mənzil ala bilməyəcəklər"

Ekspert söyləyib ki, bank kreditləri və digər məcburi ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olanlar kirayə mənzil ala bilməyəcəklər: "Mənzil almaq üçün əsas şərtlərdən biri Azərbaycan vətəndaşı olmaqdır. Kirayə mənzil üçün müraciət edən şəxslərin vaxtı keçmiş öhdəlikləri (bank kreditləri və digər məcburi ödənişlər üzrə) olmamalıdır. Əks halda belə şəxslər mənzil sahibi ola bilməyəcəklər. Bir sözlə ödəmə qabiliyyəti olan və borc öhdəliyi olmayan istənilən vətəndaş kirayə mənzillərə sahib olmaq üçün müraciət edə biləcək. Yeni mexanizmə əsasən, yaşayış sahəsinin bazar qiymətini müstəqil qiymətləndirici müəyyən etməlidir.

Kirayə müqaviləsi 3 ildən 25 ilədək müddətə bağlanmalı və notariat qaydasında təsdiqlənməlidir. Fond razılıq barədə qərarını elektron sistemdə yerləşdirdiyi gündən 10 iş günü müddətində kirayə müqaviləsinin rəsmiləşdirilməsi həyata keçirilmirsə o zaman müqaviləyə xitam verilir".

## "3 ildən sonra mənzil sahibi olacaqsınız"

V.Bayramov qeyd edib ki, kirayəçinin mənzilə sahib olması üçün 3 il keçməlidir: "Müqavilə bağlandıqdan ən azı 3 il müddətdən sonra kirayəçi mənzilə sahib olmaq hüququna malikdir. 3 ildən sonra isə növbəti 22 il müddətində istənilən zaman evin xərcini ödəməklə çıxarış (kupça) ala bilər. Kirayə mənzilə sahib olmaq istəyən şəxs kirayə müqaviləsi bağlanıldıqdan sonra aylıq ödənişin ən azı 12 mislini qabaqcadan ödəməlidir. Yəni 1 illik kirayə haqqı öncədən ödənilməlidir. Fond aylıq ödəniş məbləğini fondun satın aldığı qiymət, habelə yaşayış sahəsinin satın alınması ilə bağlı digər xərclər, bu məqsədlər üçün cəlb etdiyi vəsaitin dəyəri, kirayə müqaviləsi üzrə mümkün ola biləcək zərərlərin qarşılanması məqsədilə yaradılan ehtiyatlar üzrə ayırmalar və yaşayış sahəsini Fondun saxlaması, sığortalaması və idarə etməsi ilə bağlı bütün xərcləri əsasən hesablanacaq".

## "Mənzili rəsmi olaraq başqa şəxsə ötürmək hüququ verilir"

Ekspert vurğulayıb ki, yeni mexanizmdə kirayəçilərə mənzili rəsmi olaraq başqa şəxsə ötürmək hüququ da verilir: "Fondun yazılı razılığı ilə kirayəçinin kirayə müqaviləsi üzrə öz hüquq və vəzifələrini başqa şəxsə ötürə bilər. Sadəcə kirayəçi bunu kirayə müqaviləsi bağlanan gündən 3 ildən sonra edə bilər. Məsələn, kirayə müqaviləsi bağlanandan 3 il sonra kirayəçi ödəniş etməkdə çətinlik çəkirsə və ya evlə bağlı planları dəyişirsə o zaman fondun razılığı ilə müqaviləni başqasının adına keçirə bilər. Mənzilə mülkiyyət hüququ kirayəyə



verəndən başqa şəxsə keçdikdə, kirayənin qüvvədə qalması baş verir. Bu hal kirayə müqaviləsində də qeyd olunacaq. O ki qaldı kirayəçinin dünyasını dəyişməsi prosesinə o zaman kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin kirayəçinin vərəsələrinə keçir".

### "Aylıq ödəniş hər ay bərabər hissələrlə ödəniləcək"

Aylıq ödənişlərə toxunan V.Bayramov deyib ki, qaydalara əsasən, fonda ödənilmiş aylıq ödənişlər Fondun gəliri hesab olunur və geri qaytarılmır: "12 aylıq ilkin ödənişdən sonra kirayə müqaviləsi üzrə aylıq ödəniş hər ay bərabər hissələrlə ödəniləcək. Kirayə mənzildə yaranan xərclərə gəlincə, əgər mənzil kirayəçinin istifadəsinə verilibsə, kirayəçi yaşadığı müddətdə yaşayış sahəsinin təmir səviyyəsinin yaxşılaşdırılması və əlavə təmirlə bağlı xərcləri özü ödəyəcək. Yaşayış sahəsində yenidənqurma və ya yenidən planlaşdırma, habelə əsaslı təmir işləri yalnız Fondun yazılı razılığı ilə həyata keçirilə bilər. Kommunal xərcləri və digər məcburi ödənişləri də kirayəçi özü ödəməlidir. Sığorta hadisəsi baş verdikdə isə sığorta ödənişi kirayəçi ödədiyi vəsait ilə ödənilməmiş qalıq məbləğinin nisbətinə uyğun olaraq Fond ilə kirayəçi arasında bölüşdürüləcək ".

### Kirayə müqaviləsinə nə zaman xitam verilir?

Ekspert əlavə edib ki, kirayəçi kirayə müqaviləsi üzrə alış qiymətini tam ödədikdə və yaşayış sahəsi kirayəçinin mülkiyyətinə keçdikdə, kirayə müqaviləsi üzrə kirayə hüquq münasibətlərinə xitam verilir: "Yəni, bu zaman artıq kirayəçi mənzilə sahib olur və çıxarış (kupça) alır. Artıq o kirayə haqqı ödəmir. Kirayəçi Fondu 30 gün əvvəldən xəbərdar etməklə, kirayə müqaviləsinə birtərəfli qaydada vaxtından əvvəl xitam verə bilər. Fond isə ödənişləri 60 gün və daha çox



müddətə yubatdıqda, kirayə müddətində kirayəçi vəfat etdikdə və kirayə müqaviləsi üzrə hüquq və vəzifələr kirayəçinin vərəsələrinə keçmədikdə, kirayəçi yaşayış sahəsini üçüncü şəxsin qeyri-hüquqi istifadəsinə verdikdə müqaviləyə xitam verir".

### Yeni qaydalar vətəndaşlarımıza sosial tərəfdən nə qazandıracaq?

Yeni mexanizmin sosial tərəfləri haqqın-



da danışan sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, tətbiq olunan qaydalar vətəndaşların sosial vəziyyətinə müsbət təsir göstərəcək: "Çox təəssüf ki, əhalimiz arasında həm kirayədə qalan, həm də mənzil şəraiti arzu olunan səviyyədə olmayan vətəndaşların sayı az deyil. Elə insanlar var ki, hətta mənzili olsa belə həmin mənzil onun səhhətinə uyğun deyil və ya ziyandır. Belə olan halda, yeni mexanizm vətəndaşlarımıza kirayə ev götürmək və ödəniş etdikdən sonra ev sahibinə çevrilmək imkanı yaradır. Elə insanlar var ki, illərlə kirayədə qalır, sonra ev sahibi onu müəyyən səbəblərə görə evdən çıxarır. Halbuki hesablama aparsaq, bəlkə də kirayəçi qaldığı müddətdə mənzil sahibinə mənzilin dəyərindən də artıq pul ödəmiş olub. Bu əlbəttə ki, kirayəçilər üçün həm maddi, həm də mənəvi ziyandır".

Yeni qaydaların iqtisadi cəhətdən əsaslandıranda dövlətin də xeyrinə olduğunu dilə gətirən sosioloq vurğulayıb ki, mexanizm iqtisadi cəhətdən müsbət amilləri özündə əks etdirir: "Yeni qaydalar bu günün tələblərinə tam şəkildə uyğundur. Bu sahəyə diqqət ayrılması çox vacib idi. Yeni mexanizm dövlət büdcəsinə əlavə gəlirin yönəlməsinə imkan yaradacaq. İndiyədək insanların harada kirayə qalmasından heç kimin xəbəri olmur və bundan vergi ödənilmirdi. Lakin insanların İpoteka və Kredit Zəmanət Fondunun tabeçiliyində olan mənzillərdə kirayə qalması dövlət büdcəsinə də öz müsbət təsirlərini göstərəcək. Bir sözlə yeni qaydalar həm kirayəçilərin mənzilə əlçatanlığı, həm də dövlət büdcəsinə əlavə gəlirlərin daxil olması imkanlarını özündə ehtiva edir".

### "Bu qaydalar xarici vətəndaşlara da şamil olunsa, büdcəyə xeyr gətirə bilər"

Ə.Qəşəmoğlu bu istiqamətdə növbəti dəfə atılacaq addımlarda xarici vətəndaşların da nəzərdə tutulmasını təklif edib: "Yeni qaydalar Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub. Bəzən xarici vətəndaşların da ölkəmizdə kirayə qalması ilə bağlı bəzi problemlə yaşana, xoşagəlməz hadisələr baş verə bilir. Əgər belə qaydalar onlar üçün də tətbiq olunsa, o zaman kirayə qalan xarici vətəndaşlar da həmin mənzillərdən istifadə edə bilər və bunun özü dövlət büdcəsinə xeyir gətirə bilər".

*Nailə Məhərrəmova*

# Dünyanın ən yaxşı 500 universiteti UNEC-100

***UNEC ali təhsil müəssisələrinin beynəlxalq reytinq cədvəllərində öz mövqeyini yüksəltmək istiqamətində məqsədyönlü addımlar atır. UNEC 2015-2016-cı illərdə dünyanın ali təhsil müəssisələrinin ən nüfuzlu reytinqlərindən olan "The Ranking Web" ("Webometrics") siyahısına görə, Azərbaycan universitetləri arasında iki il ardıcıl olaraq liderliyini qoruyub. Webometrics göstəricilərinə əsasən, UNEC ən böyük çəki əmsalına malik olan təsir (Impact) və yüksək keyfiyyət (Excellence) meyarları üzrə Azərbaycan ali təhsil müəssisələri arasında yeganə universitet olub.***




UNEC Böyük Britaniyanın QS agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə reytinq cədvəlində 2016-2017-ci illərdə regionun 4-cü ən yaxşı iqtisadyönümlü universiteti olub. 2017-2018-ci illərdə daha bir uğura imza atan UNEC, dünya universitetlərinin veb populyarlığını müəyyən edən "uniRank" reytinqinin nəticələrinə görə, ölkə birincisi olub. Reytinq qiymətləndirməsinə əsasən, UNEC internet resursları üzrə ölkənin ən yaxşı və ən populyar ali məktəbi seçilib.

UNEC nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artmasına və dünya elm məkanına uğurla inteqrasiya etdiyinə görə "Clarivate Analytics" şirkəti tərəfindən Web Science üzrə ən mütərəqqi universitet seçilərək, "Web of Science Awards - 2018" və "Most progressive universities in Web of Science for the last 3 years" mükafatlarını qazanıb.

Dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunması istiqamətində uğurla addımlayan UNEC dünyanın "Ekoloji cəhətdən ən təmiz" (UI Green Metric World University) universitetlərinin illik reytinq cədvəlində 2017 və 2018-ci illər üzrə ardıcıl olaraq "Yaşıl universitet" statusunu əldə edib. Beynəlxalq reytinqlərdə mövqeyini gücləndirən UNEC yeni uğurlara da imza atıb. Belə ki, QS agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə 2018-ci ilin iyun və 2019-cu ilin yanvar ayının reytinq sıralamasında UNEC "işəgötürənlərin reputasiyası" meyarı üzrə Azərbaycanın ən yaxşı universiteti oldu.

"Webometrics" reytinqinin 2019-cu ilin yanvar ayında açıqlanan siyahısında isə UNEC "Akademik istinadlarına görə ən yaxşı universitetlər" (Transparent Ranking: Top Universities by Google Scholar Citations) meyarı üzrə ölkənin lider universiteti statusunu qazandı. UNEC-in yüksək beynəlxalq reytinqli universitetə çevrilmək istiqamətində strateji məqsəd, hədəf və fəaliyyətləri "UNEC-100" İnkişaf strategiyasında da müəyyən olunub. UNEC nüfuzlu reytinq təşkilatları ilə əməkdaşlığı daha da artırmaqla və reytinq təşkilatlarının tələblərini universitet menecmentinin bütün pillələrində daim nəzərə almaqla 90 yaşında dünyanın ən yaxşı 1000, 100 yaşında isə ən yaxşı 500 universiteti olmağı hədəfləyib.

# İşsizlərin ictimai işlərlə təmin olunması proqramı üçün 80 milyon manat ayrılıb



İctimai əsaslarla işlər deyiləndə əslində söhbət haqqı ödənilən işlərdən, yəni işaxtaranlar və işsizlərin məşğulluğundan gedir. Həmin işlər zamanı xüsusi ixtisas və peşə hazırlığı tələb olunmur. İşləmək arzusunda olanla yerli məşğulluq orqanlarında qəbula yazılır və yerli icra hakimiyyəti orqanlarının təklif etdiyi ərazilərin yaşıllaşdırılması, parkların salınması, təmir işləri, abadlıq, təmizlik işlərinə, hətta sosialyönümlü işlərə də cəlb oluna bilərlər. İctimai işlərin çoxu günün bir neçə saatı ərzində və ya tam olmayan həftə ərzində icra edilir. Həmin işlərə qəbul edilənlərin aylıq əməkhaqqı 203 manat məbləğində nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İş Mərkəzi"nin direktoru Niyazi Rəhimov mətbuat konfransında deyib.

Direktorun verdiyi məlumata görə, indiyədək işə qəbul edilən 16 min nəfərin 3 min nəfəri Bakıda, qalanları regionlarda işlə təmin olunub. Gələn ay 30 min nəfərin işə qəbul edilməsi gözlənilir və onun 6 minə qədəri paytaxtı əhatə edəcək. İşsizlərin ictimai işlərə cəlb olunması proqramı üçün 80 milyon manat vəsait ayrılıb.

# İskəndər Həmidovu “qad”larla nə birləşdirib?

## Üzdəniraq Əlikram Hümbətov bildirib ki, həbsxanada İskəndər Həmidovdan bir dəfə istifadə ediblər

***Azərbaycan xalqının hərəkatı dövründən heç də təsadüfi olmayaraq, ortaya çıxan, daha dəqiq desək, bəlli qüvvələr tərəfindən ortalığa atılan fiqurqantlardan biri də sabiq daxili işlər naziri İskəndər Həmidovdur. Bu gün AMDP adlı partiyaya sədrlik edən bu şəxsin açıq-aşkar cinayətkar aləmə pərəstiş etdiyini deməsi, bu düşüncə tərzi ilə AXCP sədri Əli Kərimlinin həndəvərində dolanması, artıq sözügedən zümrənin hansı “səviyyəyə” malik olduğunu açıq-aşkar sübut etməkdədir. Həm də təsdiq olunur ki, bu üzdəniraq siyasətçilər yalnız dil qəhrəmanıdırlar. Reallıqda onların bacardıqları və ya həyata keçirə biləcəkləri əməli iş yoxdur.***



Səbəb də bu şəxslərin özlərinin kifayət qədər çirkaba bulaşmalarıdır. Zamanında özünü reket kimi aparan İskəndər Həmidov “dədəm mənə kor deyib, gəlib-gedəni vur deyib”, məsəlinə uyğun olaraq, tutduğu vəzifədən, əldə etdiyi səlahiyyətdən sui-istifadə etməklə, azad fikir söyləyənləri, sağlam ideya irəli sürənləri tənqid və təhqir etməklə kifayətlənməyib, döyməkdən və ya həbsxanaya atmaqdan da belə çəkinməyib. Bu gün də mətbuat səhifələrində İ.Həmidovun o zaman jurnalist kimi fəaliyyət göstərən Zərdüşt Əlizadəni döyüb təhqir etdikdən sonra maşınının baqajına basaraq, polis bölməsinə aparması müzakirə olunan mövzulardandır. O, AXC-Müsavat hakimiyyətinin başbilənlərinə qarşı, o cümlədən, prezident Elçibəy haqqında təhqiramiz ifadələr səsləndirib, onları Qarabağa döyüşlərə göndərəcəyi ilə hədələyirdi. Ümumiyyətlə, İ.Həmidov o zaman daxili işlər naziri kimi ölkədə asayişi qorumaq, cinayətkarlığın aradan qaldırılması istiqamətində tədbirlər görməkdənsə, rəqiblərini Qarabağa göndərməklə hədələyib sıradan çıxarmağa daha çox əmək sərf edirdi. Bir növ Qarabağ İ.Həmidovun düşmənlərinin zərərsizləşdirilməsi üçün zona hesab olunurdu. Bu təfəkkürün, bu düşüncənin sahibi sonrakı dövrlərdə də bir sıra yaramaz və əxlaqsız əməllər törətməyə cəhdlər göstərdi. Ancaq ölkəmizdə artıq hüquqi-demokratik dövlət qurulduğu üçün onun qeyri-qanuni əməlləri həyata keçə bilmədi. Nəticədə, o, başıbəlalı məxluq həbs olundu. Yayılan məlumatlara və sızan informasiyalara görə, həbsxanada da, o özünü əxlaqlı apara bilməyib. Baxmayaraq ki, keçmiş nazir olduğundan, bəzi məhbuslar ona hörmət etməyə çalışıblar. Hətta oğru dünyasının tanınmış şəxsləri İ.Həmidovu bir sıra xoşagəlməz situasiyalardan qoruya da biliblər. Bu barədə adının çəkilməsini istəməyən keçmiş məhbuslardan birinin dedikləri: “Lotu Quli” ilə İskəndər Həmidovun bir-birinə qarşı hörməti vardı. Keçmişində “paqon” daşımasına görə onun oğru dünyasındakı yeri başqa idi. Kiminsə taleyinin həll olunmasına dair müzakirələrdə iştirak edə bilməzdi. Çünki “katyol”da oğru mandatı yox idi. Kriminal baxımdan olmasa da, siyasi baxımdan avtoritet idi. Ona hamı hörmət bəsləyirdi. Çünki nazir olduğu vaxt 701 nəfəri azadlığa buraxmışdı. İskəndər Həmidovun olduğu korpusda heç kim karserə salınmır, “sutka” yatmırdı. O, məhkumları qoruyurdu. Bir dəfə gördü ki, tanınmış məhkumlardan birinin ərzağı həddindən artıq çoxdur. Bunu bir həftəyə yeyib qurtara bilməz, ərzaq xarab olacaq. O, həmin ərzaqları götürüb, ehtiyacı olanlara payladı. Ərzağın sahibi olan məhkum isə etiraz etdi. Soruşdu ki, “bu hərəkətin adı nədir?” İskəndər Həmidov cavab verdi ki, “adamlar orda acından ölür, sən burda ərzağı xarab edirsən”.

Keçmiş məhbusun sözlərinə görə, o, Qobustan həbsxanasında olanda, bir dəfə “gəzintidə” maraqlı bir söhbət eşidib. “O başa-bu başa addımlayırdıq. Birdən İskəndər Həmidov dedi ki, filan kameraya 20 şirvan pul göndərmişəm, xəstələri var. “Lotu Quli” də qayıtdı ki, “niyə elə etmisiz, bəy? Axı ora “praqon” altındadır. Ora “obyavka” olunan “qad”ların kamerasıdır”.

Qeyd edək ki, “obyavka” məhbusların statusunun bəyan edilməsidir. “Qad”lar isə, hətta üzdəniraqlardan aşağıdır. Zonda ən alçaq, əclaf, yaramaz insanları “qad” adlandırırlar. Onlarla ünsiyyətə girmək olmaz. Təsəvvür edin: üzdəniraqlarla müəyyən ünsiyyətə girmək, məsələn, çay istəsələr, vermək olar. Amma “qad”larla heç bir ünsiyyət olmaz. İskəndər Həmidov da bunu bilə-bilə onlara pul göndərmişdi. “Quli” elə deyəndə, Həmidov bildirdi ki, “mən “paqon” olmuşam, oğru deyiləm. Adam xəstədirsə, yardım etmək lazımdır”.

Bu məqamda diqqətçəkən maraqlı məsələlərdən biri də odur ki, İ.Həmidovun “qad”larla əlaqəsi heç də təsadüfi deyil. Bu barədə erməni qazanının dibini yalayanlardan olan Əlikram Hümbətov mətbuata açıqlamalarının birində bildirmişdir ki, o, İ.Həmidovla dostluq əlaqələrinə malik olsa da, heç zaman onunla prinsipial məsələləri bölüşə bilməyib. Ə.Hümbətov şəxsiyyət olaraq İ.Həmidovun utancverici əməllərə sahib olduğunu da qeyd edib. Bildirib ki, İ.Həmidov həbsxanada olduğu zaman ondan bir dəfə istifadə ediblər.

Çox maraqlıdır ki, Ə.Hümbətovun ciddi hesab olunan bu fikirlərinə İ.Həmidovun geniş şəkildə münasibət bildirməməsi müəyyən şübhələrə və ehtimallara əl yeri qoyur. Bu, məsələnin kökündə ciddi nüansların dayanmasını sonrakı mərhələdə İ.Həmidovun etdiyi xoşagəlməz hərəkətləri də gücləndirmiş olur.

### AXC hakimiyyəti bir Elçibəydən, bir də İskəndər Həmidovdan ibarətiymiş?

İ.Həmidov anormal siyasətin daşıyıcısı olduğunu Əvəz Zeynallıya verdiyi müsahibəsində də etiraf edir. Misal üçün onun sözügedən müsahibəsində deyilən ifadələrindən biri də guya korrupsiya ilə 1990-cı ildən mübarizə aparması ilə deyilən sözlərdir. Halbuki bu günün özündə siyasi korrupsiya sayəsində, qrantlar və bank maxinasiyaları ilə pullar yığan AXCP sədri Əli Kərimlinin həndəvərində hərlənən də, məhz İ.Həmidovdur. Maraqlıdır, əgər o, həqiqətən də, korrupsiya ilə mübarizə apardığını iddia edirsə, nəyə görə bununla yanaşı, jarqon ifadə ilə desək, oğru aləminə hörmət etdiyini də etiraf edir? Axı bildiyimiz qədər cinayətkar aləmin əsas mənbəyi elə oğurluq məqsədi ilə əldə edilən pullardır!

Daha bir məsələ AMDP sədrinin AXC iqtidarında olan digər şəxslərin həmin hakimiyyətə aidiyyatlarının olmaması ilə dediyi sözləridir. Əbəs deyil ki, “AXC-dən hakimiyyətdə iki nəfər vardı - biri Əbülfəz Elçibəy idi, biri mən” deyən Həmidov, bununla demək istəyir ki, hətta AXCP sədri Əli Kərimli də daxil olmaqla, o zamankı hakimiyyətin bütün üzvləri, sadəcə, bu iqtidarda təmsil olunublar və ələvə heç bir iş aparmayıblar. Yəqin ki, bu gün AXC hakimiyyətində özündən və Elçibəydən başqa kimsənin olmadığını deyən İ.Həmidov buna görə ciddi şəkildə hücumlara məruz qalacaq. Ən azından, AXCP sədri Ə.Kərimlinin tapşırığı altında olan trolları tərəfindən.

### Eldar Həsənovdan alınan 50 min manat...

Yeri gəlmişkən, bu gün özünü “təmiz” göstərməyə çalışan İ.Həmidov sabiq prokuror Eldar Həsənovun ölkəni tərk etməsi üçün 50 min manat verdiyini də etiraf edib. Maraqlıdır, bu etirafları edən Həmidov hələ də özünü “vicdanlımı” hiss edir?

Yaxud minlərlə insanların, iş adamlarının haqqına girərək, onları çapıb-talayan Eldar Mahmudovu “mundar suya sal və iç” timsalında “təmizə çıxarmağa çalışan” Həmidov bu qədərmi “kordur”!?

### İskəndər Həmidov Rəsul Quliyevi tutdurmaq istəyirmiş, Elçibəy hakimiyyəti isə...

Daha bir məsələ isə eks-spiker Rəsul Quliyevlə bağlıdır. Belə ki, İ.Həmidov AXC hakimiyyətinin səriştəsizliyini növbəti etirafı ilə ifadə edib. O, Rəsul Quliyevə cinayət işi qaldırdığı halda, onun vəzifəsinin artırıldığını bildirib. Bəli, məhz korrupsionerlərin vəzifələri Elçibəy hakimiyyəti zamanında artırılırdı. Bu isə korrupsiya və rüşvətxorluğun məntiqi nəticəsi idi.

Digər nüans, bu hakimiyyətin qanunlar üzərindən keçərək, şəxsi məqsədləri hesabına onlara xoş olmayan insanları döymələri, linç etmələri idi.

### Zərdüşt Əlizadə: “İskəndər Həmidovun danışığına fikir versəniz, onun savadsızın və cahilin biri olduğunu görmək olar”

Əbəs deyil ki, İ.Həmidov o zamanlar Zərdüşt Əlizadəni döydüyünə görə, hələ də qürrələnir. Üstəlik, “Kaş Zərdüşt Əlizadəni döyməyəydim, öldürəydim” deyə daxilindəki qeyri-inani mövcudluğunu nümayiş etdirir. Yəni o bu gün hər hansı vəzifədə olsaydı, demək, yenidən bu cinayətlərini törətmiş olardı. Bizimlə söhbətində isə, Zərdüşt Əlizadə İ.Həmidovu siyasətçi hesab etmədiyini, onun savadsızın və şərəfsizin biri olduğunu söylədi: “Bir dəfə tədbirlərin birində İ.Həmidovla rastlaşdım. Bir söz demədən, tədbir zalını tərk etdim. İ.Həmidovun danışığına fikir versəniz, onun savadsızın və cahilin biri olduğunu görmək olar. Onlar bu gün nə baş verdiyindən bixəbərdirlər. Hələ də keçmişin xəyalları ilə yaşayır və arzulara dalırlar”. Z.Əlizadə onu da bildirdi ki, bu zümrələr özlərindən yalanlar uydurmaqla, cəmiyyəti aldatmağa çalışırlar: “Bu isə şərəfsizliyin nümunəsidir. Artıq onlar tarixin arxivinə atılıblar. İddiaları əsassızdır. Bu gün qətiyyətsiz və iradəsiz Mütəllibov hakimiyyəti deyil, güclü, qüdrətli, xalqın inandığı və etibar etdiyi hakimiyyət mövcuddur. Bir qədər danışacaqlar, sonra da susmaq məcburiyyətində qalacaqlar”.

### Torpaqlarımız işğala uğradığı halda, İskəndər Həmidov yalnız Kəlbəcərə görə istefa verib

Bu arada, İ.Həmidovun istefaya getməsinin səbəbi kimi Kəlbəcərin işğal olunmasını göstərməsi də anlaşılan deyildi. Çünki cəbhə hakimiyyəti dövründə ard-arda işğal edilən, satılan ərazilərimiz qalır bir tərəfdə, İ.Həmidov yalnız doğulduğu rayonun işğalına görə istefaya getdiyini bildirir. Bu isə, eyni zamanda, bu hakimiyyətin regionçuluq, ayrı-seçkilik üzərində qurulduğunu sübuta yetirir.

Bəli, bu gün “cinayətkar aləminə hörmətim var” deyən İ.Həmidov nə yaxşı ki, hakimiyyətdə deyil və bu gün onun həndəvərində fırlandığı Əli Kərimli, Cəmil Həsənli və sairləri də məhv olmuş müxalifətdə təmsil olunurlar. Bir sözlə, əgər bu gün bu adamlar öz daxillərində belə adi müxalifəti idarə etmək qabiliyyətində deyillərsə, hakimiyyətə iddiaları, ümumiyyətlə, heç cür mümkün ola bilməz. Xalq belə cinayətkar qrupları heç vaxt qəbul etməyib, etməyəcək də!

*Rövşən Rəsulov,*
*İ.Əliyev*

## Odlu silah və sursat gizlədən şəxs saxlanılıb




Sabunçu Rayon Polis İdarəsi 42-ci Polis Bölməsi əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi məqsədilə növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. DİN-in mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bölməyə Nardaran qəsəbə sakini İntiqam Vəliyevdə odlu silah olması barədə əməliyyat məlumatı daxil olub.

Həmin şəxs polislər tərəfindən saxlanılıb və onunla aparılan profilaktik söhbətlər zamanı o, qəsəbə ərazisində gizlətdiyi sursatın yeri barədə məlumat verib. Qeyd edilən əraziyə baxış zamanı İ.Vəliyev tərəfindən torpağa basdırılan 27 ədəd avtomat gülləsi, 1 ədəd F1 qumbarası alışqanı ilə birlikdə, 2 ədəd bıçaq, 1 ədəd 12 kalibrli ov tüfənginə məxsus güllə aşkar olunaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı 42-ci polis bölməsində toplanan materiallar Sabunçu RPİ-nin İstintaq Şöbəsinə göndərilib.

Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirir ki, əllərdə saxlanılan qanunsuz odlu silah-sursat və partlayıcı maddələr könüllü olaraq hüquq-mühafizə orqanlarına təhvil verilməlidir.

# Əli Kərimlinin ələbaxan diləngçilik strategiyası



***Yanvarın 29-da, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında şahid qismində dindirilənlərin ifadələri bir çox məqamlara aydınlıq gətirir və əslində, AXCP sədri Əli Kərimlinin şəxsi məqsədlər, təxribatlar törətmək niyyəti ilə vəsait toplamağa yönələn fəaliyyətini ifşa edir. Ə.Kərimlinin, Cəmil Həsənlinin, ABŞ və Rusiyanın ölkəmizdəki səfirliklərinin nümayəndələrinin, eləcə də, KİV-lərin nümayəndələrinin iştirak etdiyi məhkəmə iclasında dindirilən şahidlər - Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov AXCP sədrinə vəsait toplanıldığını bildirmələri cəbhəçilərin sədrinin hansı niyyətli olduğunu, vəsait əldə etmək üçün hər vasitəyə əl atdığını, şəxsi maraqlarını hər şeydən üstün tutduğunu, çirkin niyyətli olduğunu və ümumilikdə, mahiyyətini təsdiq edir.***

Şahidlər toplanılan vəsaitlərin əvvəlcə partiya üzvlərinin ailələrinə yardım edilməsi məqsədilə yığıldığını deyənlərin sonra bu pulların Ə.Kərimliyə çatacağını söyləmələrini də gizlətmirlər və bu isə, ondan xəbər verir ki, AXCP sədri, eyni zamanda, onun pul toplamaq üçün təyin etdiyi nümayəndələri vəsait toplamaq naminə hər cür yalana əl atır, hər dona girirlər. Məsələnin ən diqqətçəkən tərəfi ondan ibarətdir ki, AXCP sədri üçün Rusiyada toplanılan vəsaitlər qanunsuz yollarla ünvanına çatdırılıb. Yəni nəzarətdən yayınmaq, gizlinliyi təmin etmək niyyəti göz qabağındadır və Ə.Kərimlinin belə gizlin şəkildə vəsaitləri qonşu ölkədən keçirməsi, yaxud keçirtdirməsi heç də qanunvericiliyə uyğun deyil. Daha dəqiq desək, qanuna zidd və məsuliyyət tədbirləri tələb edir.

### Əli Kərimli gizlin şəkildə, qanunsuz yolla pul keçirilməsini təşkil etməklə də qanunları pozur

Ölkələrarası pul köçürülməsi qanunlar çərçivəsində həyata keçirilməlidir və AXCP sədri bunu çox gözəl bilir. Çox gözəl bilir ki, vəsaitlər bir ölkədən digərinə köçürülərkən, bu barədə məlumat köçürmə sistemində öz əksini tapır və köçürmə sistemləri bu vəsaitlərin köçürülməsi müqabilində əvvəlcədən müəyyən olunmuş məbləğdə vəsaitin tutulmasını da həyata keçirir. Sual oluna bilər: Ə.Kərimli nəyə görə topladığı pulları əldə etmək üçün bu köçürmə sistemlərindən istifadə etməyib? Bu sistemlərdən istifadə etməkdən boyun qaçırmaq nəyə lazım idi? Onun vəsaitləri gizlin şəkildə əldə etməsində marağının olduğu açıq-aşkar göz qabağındadır. Əldə etmək istədiyi pullardan köçürmələrə görə ödəniş etməkdən boyun qaçırmasından daha çox, onu bu vəsaitlər barədə məlumatların qeydə alınmaması maraqlandırdığı yaranan suallardan bəlli olur.

Vəsait mənimsənilməsi və məlumatların gizlin saxlanılması üçün həmin vəsaitlərin qanunsuz yollarla keçirilməsini həyata keçirən AXCP sədri məsuliyyət daşıyacağını da əvvəlcədən bilərək, bunu reallaşdırması onun qanunlara da necə və nə dərəcədə əməl etdiyini, daha doğrusu, etmədiyini təsdiq edir. Daha dəqiq desək, Ə.Kərimli gizlin şəkildə, qanunsuz yolla pul keçirilməsini təşkil etməklə də, qanunları pozur. Özünün təşkilatçılığı ilə keçirilən və kiçik aksiya təəssüratı bağışlayan mitinqlərində qanunlardan ağız dolusu danışan Ə.Kərimli, indi necə olur ki, özü bu qanunlara etinasızlıq, saymazlıq göstərir? Təbii ki, yalnız mənfəət haqda düşünmək Kərimli üçün xarakterik xüsusiyyətdir və onu nə qanun maraqlandırır, nə də qanunvericilik.

### Toplayacaqlarını guya partiya nümayəndələrinin ailələrinin maddi ehtiyaclarına xərcləyəcəyindən belə istifadə edən partiya sədri etibarını itirəcəyini də düşünmür

Ə.Kərimli Rusiya ilə əlaqələrindən özünəməxsus məharətlə istifadə edib və edir. Hüquq-mühafizə orqanlarının son araşdırmaları və onun nəticələri, yəni AXCP sədrinin mənimsəmə faktları bunu təsdiq edir. Təsdiq edir ki, Rusiyada olan gizli bağlantılar AXCP sədrinin maddi gözləntilərini ödəmə məqsədi daşıyıb. AXCP sədri külli miqdarda vəsait mənimsəmək üçün hər zaman çalışıb və buna nail olub da. Bu yolda nə qanun haqqında düşünüb, nə də qanunvericilik.

Əslində, toplayacağı pulları guya partiya nümayəndələrinin ailələrinin maddi ehtiyaclarına xərcləyəcəyindən belə istifadə edən partiya sədri etibarını itirəcəyini də düşünməyib. Bir az acıq və kobud şəkildə ifadə etsək vecinə də almayıb. Çünki onu etibarlılıq kimi prinsiplər yox, yalnız ələ keçirmək istədiyi pullar maraqlandırıb. Görüntü yaratmaqla, mənimsədiyi pulların çox cüzi hissəsini aksiyalara sərf etməklə, güya ki, bu vəsaitləri təyinatına uyğun şəkildə xərclədiyini göstərməklə, həm bu vəsaitləri göndərənlərə, həm də əqidədaşlarına bu vəsaitlərdən bir quruş verməməklə bütün yaxın ətrafını aldadıb. Nəticədə, bütün pullar yalnız özünə çatıb və öz məqsədləri üçün istifadə olunub. Lakin hüquq- mühafizə orqanlarının üzə çıxardığı və ictimaiyyətə bəlli olan mənimsəmə faktları qarşısında AXCP sədri acizdir və oyunların sonuna gəldiyinin də fərqindədir. Fərqindədir ki, ona inanan bir neçə zombiləşmiş tərəfdarlarının da etibarını itirib və bundan sonra hansısa yardıma, həm də nəyə isə ümidi belə qalmayıb.

### Əli Kərimli kimi avantürist milli maraqlar, dövlətçilik maraqları, inkişaf deyil, şəxsi maraqlarının təmin edilməsi, maddi vəsaitlər axtarışındadır

Radikal müxalifətçilərin maraq dairəsində milli maraqlar, dövlətçilik maraqları, inkişafa, nüfuzun artmasına xidmət etmək yoxdur. Ə.Kərimli kimi avantürist yalnız şəxsi maraqlarının təmin edilməsi və maddi vəsaitlər axtarışındadır. Məhz buna görə də, yeni anormal fəaliyyətlərinin müqabilində maddi ehtiyaclarını dəstəkləyəcək nə fiziki, nə hüquqi şəxs var, nə də hər hansı müəssisə və təşkilat. Yəni Azərbaycan üçün, dövlətimiz üçün, bu xalq üçün, vətəndaşların mənafeyi üçün heç bir strategiya müəyyənləşdirməyənlərə cəmiyyət və onun ayrı-ayrı nümayəndələri tərəfindən dəstək yoxdur və ola da bilməz. İctimaiyyəti maraqlandıran, vətəndaşlara fayda verə bilən fəaliyyətləri olmayanların, təbii ki, daxili resurslar hesabına maliyyələşməsinə zərrə qədər haqqı olmadığı kimi, ümidi də yoxdur. Bu halda, müxalifət başbiləninin xaricdən maliyyələşməyə meyilli olması da başadüşüləndir və bu adam çarəsiz qalaraq, yardım adı ilə, müxtəlif bəhanələrlə xaricdən vəsaitlər ələ keçirmək niyyətinə düşüb.

Radikal müxalifət partiyalarının ölkənin siyasi həyatında heç bir rola malik olmadıqları günümüzün inkarolunmaz reallığıdır və bunların ölkənin inkişafı ilə bağlı hər hansı təşəbbüslə çıxış etdiyinin şahidi olan da yoxdur. Yalnız maddi dəstək müqabilində partiyaçılıq və müxalifətçilik oyunu oynayan radikal oyunbazların Azərbaycan xalqının iradəsi ilə heç bir əlaqəsi ola da bilməz. Məhz AXCP sədri Ə.Kərimlinin hazırkı fəaliyyəti, bu mənada, xarakterikdir. Onun kimlərinsə əlinə baxan dilənçilik strategiyası və şəxsi mənafeyi, vəsait əldə etmək naminə satqınçılıq mövqeyi göz qabağındadır. Bu mövqeyi onu xəyanətə də sürükləyir, hər cür çirkin əməllərə də.

***İnam HACIYEV***

## Elxan Şahinoğlu: "Müxalifət qrant əldə etmək üçün aksiyalar keçirməyə çalışır"



"Demokratik cəmiyyətlərdə mitinqlərin keçirilməsi normal bir haldır, o cümlənə də, Azərbaycanda". Bunu SİA-ya açıqlamasında Politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, yəni kimsə mitinq etmək istəyirsə əvvəlcədən icazəsini amalı və mitinqini keçirməlidir: "Bir şərtlə ki, qanun və qaydalara riayət etsinlər. Təəssüf ki, bəzi müxalifət təmsilçiləri müstəqil olmadıqlarından, qrant əldə etmək üçün aksiyalar keçirməyə çalışırlar. Ümumiyyətlə, Azərbaycanda önəmli olan sabitlikdir və sabitliyin davamlı olması Azərbaycan üçün çox vacibdir. Çünki bu gün Azərbaycan dövlətinin uğurlu inkişafına paxıllıq edən, qısqanclıq hissi ilə yanaşan bəzi xarici qüvvələr var. Həmin xarici qüvvələrdə Azərbaycanın sabitliyinin pozulmasında maraqlıdırlar. Amma tam əminliklə deyə bilərəm ki, heç bir xarici qüvvə ölkəmizdəki, sabitliyi poza bilməz. Çünki ölkəmizdə möhkəm əsaslara malik sabitlik mövcuddur".

## Plastik torbalar ödənişli olduqdan sonra onlara olan tələbat 95 faizədək azalır

Ekologiya və Təbii Sərvətlər Nazirliyi plastik tullantıların ətraf mühitə mənfi təsirlərinin azaldılması məqsədilə beynəlxalq ekspertlərin iştirakı ilə maraqlı tərəflərin görüşünü təşkil edib. Görüşdə müvafiq qurumların, qeyri-hökumət təşkilatlarının və istehsalçı şirkətlərin nümayəndələri də iştirak ediblər.

Bu barədə AZƏRTAC-a nazirliyin sektor müdiri Mehman Nəbiyev məlumat verib. Sektor müdiri bildirib ki, plastik tullantıların ətraf mühitə mənfi təsirlərinin azaldılması ilə bağlı nazirliyin hazırladığı Tədbirlər Planı qəbul olunduqdan sonra bütün maraqlı tərəflərin iştirakı ilə onun mərhələli şəkildə icrasına başlanılacaq: "Tədbirlər Planında ətraf mühitin çirklənməsində daha çox rol oynayan yüngülçəkili polietilen torbalardan istifadənin məhdudlaşdırılması, marketlərdə ödənişli sistemin tətbiqi ilə bağlı təkliflər yer alıb. Həmçinin çox yüngülçəkili polietilen torbalardan istifadənin tamamilə qadağan edilməsi də təklif olunub. Beynəlxalq təcrübə göstərir ki, bu torbalar ödənişli olduqdan sonra onlara olan tələbat 95 faizədək azalır. Lakin polietilen torbalardan istifadəni azaltmaq üçün onların marketlərdə ödənişli olması yeganə həll üsulu deyil. Həmin materialların alternativləri, yəni kağız, parça, kətan torbaların istehsalının genişləndirilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub."

# BSU-da Azərbaycan Gənclər Günü qeyd olunub



***Dünən Bakı Slavyan Universitetində 2 fevral Azərbaycan Gənclər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlanıb.***

Tədbirdə çıxış edən BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi sahəsində müəyyən etdiyi strateji addımlar Onun layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, reallığa çevrilib. O, Ulu Öndər Heydər Əliyevin gənclərə daim qayğı ilə yanaşdığını və bu gün qeyd edilən Gənclər Gününün də həmin qayğının təzahürü olduğunu bildirib. R.Novruzov gənclərin öz fəaliyyətləri ilə bu etimadı hər an doğrultduğunu və Prezident İlham Əliyevi daim dəstəklədiklərini, Onun rəhbərliyi altında dövlətçiliyimizin keşiyində mətanət və ləyaqətlə dayandıqlarını vurğulayıb.

Tədbirdə çıxış edən tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanovaya verilib. X.Sultanova çıxışında Gənclər Gününün yaranma tarixi barədə qısa məlumat verib. O, qeyd edib ki, Bakı Slavyan Universitetinin gəncləri ölkəmizdə keçirilən bütün daxili və beynəlxalq miqyaslı tədbirlərdə könüllü olaraq fəal iştirak edirlər.

Tədbir çərçivəsində universitetin ictimai həyatında fəal iştirakına görə fərqlənən 30 tələbəyə təşəkkürnamə təqdim olunub. Sonra II kurs tələbəsi Səfiyyə Mustafayeva BSU-nun Mətbuat Xidmətinin rəhbəri, dosent İbrahim Quliyevin müəllifi olduğu "Azərbaycan gəncləri" şeirini səsləndirib.

Tədbirin davamında Gənclər Günü ilə bağlı məruzələr dinlənilib. BSU-nun Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Günay Vəliyeva "Uğurlu və xoşbəxt Azərbaycan gəncliyi", YAP Nəsimi rayon təşkilatı BSU-nun ərazi ilk partiya təşkilatının gənclər birliyinin sədri, IV kurs tələbəsi Şirin Hüseynzadə və YAP-ın fəal üzvü, I kurs tələbəsi Ayxan Əzizov "BSU-nun bizə qazandırdığı uğur", ərazi ilk partiya təşkilatının gənclər birliyinin müavini, II kurs tələbəsi Münasib Əliyev "Azərbaycan gəncləri idman arenalarında", YAP-ın fəal üzvü, I kurs tələbəsi İradə Cəfərova "Heydər Əliyevin gənclərə verdiyi dəstək", III kurs tələbəsi Əhməd Əhmədov "Azərbaycan Gəncləri" mövzularında çıxış ediblər.

Sonda BSU tələbələrinin ifasında vətənpərvərlik ruhlu şeir və mahnılar səsləndirilib.

***Zümrüd BAYRAMOVA***

# YAP Yevlax rayon təşkilatında gənclər birliyinin hesabat yığıncağı keçirildi

***Dünən Yeni Azərbaycan Partiyasının Yevlax rayon təşkilatında hesabat yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə YAP Yevlax rayon təşkilatının sədr müavini - aparat rəhbəri Əli Quliyev açaraq bildirdi ki, Ulu Öndər Heydər Əliyev siyasətinin mühim tərkib hissəsindən biri də gənclər siyasətidir. Ümummilli Liderin dövlət siyasətini və onun tərkib hissəsi olan gənclər siyasətini bu gün davamlı olaraq, Cənab Prezidentimiz İlham Əliyev uğurla davam və inkişaf etdirir.***




Tədbirdə YAP Yevlax rayon təşkilatı gənclər birliyinin sədri Ariz Mikayılov 2018-ci ildə görülən işlər və qarşıda duran məsələlər haqqında hesabat verdi. O bildirdi ki, fəaliyyət göstərdiyimiz müddət ərzində YAP Yevlax rayon təşkilatı gənclər birliyinin fəal üzvləri ilə birgə Ulu Öndər Heydər Əliyev irsinin öyrənilməsi istiqamətində, Prezidentimiz İlham Əliyevin təsdiqlədiyi gənclər siyasətinin əsas istiqamətləri üzrə gənclərin sağlamlığının qorunması, vətənpərvərlik mövzularında, gənclərin mənəvi-əxlaqi tərbiyəsi, intellektinin artırılması istiqamətində tərəfimizdən bir çox tədbirlər həyata keçirilmişdir. Qeyd etmək istəyirəm ki, YAP Yevlax rayon təşkilatının uçotunda 8926 nəfər üzv dayanır ki, onlardan 1719 nəfərini gənclər təşkil edir. Gənclərimiz, eyni zamanda, üzv olduğu Yeni Azərbaycan Partiyasının siyasi kampaniyalarında, təbliğat və təşviqatında yaxından iştirak edir, öz siyasi bilik və bacarıqlarını inkişaf etdirirlər. Belə ki, 2018-ci il prezident seçkilərində könüllü fəal gənc partiyaçılardan ibarət mobil qrup yaradılmışdır. Onlar imzatoplama aksiyalarında seçkinin təbliğat-təşviqatının aparılmasında fəal iştirak etmişlər.

YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova çıxış edərək, gənclər birliyinin illik fəaliyyətini müsbət qiymətləndirdi. O, qeyd etdi ki, Cənab Prezidentin xüsusi diqqət və qayğısı ilə bu gün təkcə paytaxt Bakıda deyil, regionda gənclərimizin intellektual səviyyəsi cox yüksəkdir. Bu isə, öz növbəsində, rayonlarda işin daha sürətlə həyata keçirilməsinə öz töhfəsini verir. Hesab edirəm ki, Yevlax gənclər birliyi yevlaxlı gənclərin yaxşı işlərə, yaxşı vərdişlərə qoşulmasında lokamativ rolunu icra edir. Bu, çox tədqirəlayiq haldır. Tədbirdə çıxış edən Yevlax şəhər gənclər, idman idarəsinin rəisi Bünyamin Musayev və başqaları bildirdilər ki, ölkə Prezidentinin apardığı uğurlu daxili və xarici siyasəti yaxından izləyir, dəstəkləyir və təbliğ edirlər.

***RƏFİQƏ***

# Bakcell "Milli KSM Mükafatı 2018" müsabiqəsinin qalibi olub




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Azərbaycanda ilk dəfə təşkil olunan "Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Asan Xidmət və Milli Məclis üzvləri, bır sıra qeyri-hökumət və özəl təşkilatların təmsil olunduğu Münsiflər Heyəti Bakcell şirkətini "Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyasında mükafatlandırıb.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyası, Azərbaycan Gənclər Fondu və Proaktiv şirkətinin Bakı Konqres Mərkəzində təşkil etdiyi mükafatlandırma mərasimində 2018-ci il ərzində həyata keçirilmiş uğurlu KSM layihələrinin seçilməsi üçün baş tutmuş müsabiqə, uğurlu KSM layihələri və Azərbaycanda bu sahənin inkişafı haqqında danışılıb.

""Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyası üzrə mükafata layiq görülmüş "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Bakcell"in əz uzunmüddətli tərəfdaşlarından biri olan "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə icra olunur. Layihədə iştirak edən gənclər "Bakcell"in maliyyə dəstəyilə öz kiçik bizneslərini qurublar. Biz 2019-cu ildə də növbəti eyniadlı layihəni həyata keçirəcək və daha çox gəncə dəstək olacağıq", deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

"Bu il 10 yaşını qeyd edəcəyimiz "Bakcell Stars" KSM proqramı ölkənin ən geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramlarından biridir. Proqramın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənclər üçün bərabər hüquq və imkanların yaradılması və onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi ilə yanaşı ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqların və valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır. Bakcell şirkətinin bu istiqamətdə uğurlu fəaliyyəti davamlı xarakter daşıyır və biz çox şadıq ki, uşaq və gənclərə göstərdiyimiz dəstək öz bəhrəsini verir", deyə Süheylə Cəfərova əlavə edib.

# Bu il beş şəhərdə içməli su layihələri başa çatacaq

Bu il beş şəhərdə içməli su layihələri başa çatacaq. AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bildirib.

İçməli su ilə təminatın 70 faizə çatdığını vurğulayan dövlətimizin başçısı deyib: "Hazırda 38 şəhərdə içməli su layihələrinin icrası başa çatıb, bu il 5 şəhərdə başa çatacaqdır və 12 şəhərdə işlər artıq başlanıb, gedir və bir neçə şəhərdə hələ ki, başlanmayıb. Bu məsələlər daim gündəlikdədir və qəbul ediləcək dördüncü proqramda da öz əksini tapacaq".

# Mehman Hüseynovun sağlığına “yas tutanlar”...

*Yaxud Avropa Parlamenti İrəvanın “Nubaraşen həbsxanası”nda aclıq elan edən jurnalist Mger Yegiazaryanın ölməsinə niyə münasibət bildirmir?*

**17 yanvar tarixində Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnamə qəbul etdiyi gün İrəvanın “Nubaraşen həbsxanası”nda 5 dekabr 2018-ci ildə aclıq elan edən jurnalist, “hay-news.am” saytının rəhbəri, “Erməni qartalları: Vahid Ermənistan Partiyası”nın sədr müavini, Paşinyanın “küçə şouları”na dəstək verməyən Mger Yegiazaryan səhhətində yaranan problemlərə görə, təcili xəstəxanaya köçürülmüşdü.**



Siyasi mövqeyinə görə Ermənistanın baş naziri Nikol Paşinyanın göstərişi əsasında “dələduzluq” ittihamı ilə həbs edilən jurnalist aclıq aksiyasını 44 gün davam etdirdi. Yəni Paşinyan tərəfindən siyasi baxışına görə cəzalandırılan, etdiyi müraciətlərə məhəl qoyulmayan Mgerin hüquqları pozuldu və öldü. Bu hadisə həmin vaxta təsadüf edirdi ki, Mgerin ölüsünə ağlamayan Avropa Parlamenti heç aclıq aksiyası keçirməyən Mehman Hüseynovun diriliyinə “yas tuturdu”. Vay-şivən qoparırdı ki, qoymayın, Mehman öləmə məhkum olunub, Azərbaycanda demokratiya pozulub, insan hüquqları qorunmur. Yəni ölən Mger olsa da, AP-də müzakirəyə çıxarılan “Mehman Hüseynov məsələsi” oldu. Əvvəllər olduğu kimi, avropalı parlamentarilər yenə də Ermənistan hakimiyyətinə güldən ağır söz demədilər. “Mart hadisələri” ilə ittiham edilən, prezident seçkilərində aksiya iştirakçılarını güllələbaran edən sabiq prezident Robert Koçaryanı həbs edən Nikol Paşinyanın əməllərini “görməyən” erməniləşmiş avropalılar baş nazirin başına tumar çəkdilər.





Mehman Hüseynov məsələsi qitə ölkələrində məskunlaşan milli xəyanətkarlar, Azərbaycanın daxili düşmənləri tərəfindən süni olaraq ortaya atılan bəhanə idi. Çünki bloggerin ailə üzvləri, həbsdə ona baş çəkən hüquq müdafiəçiləri də təsdiqlədilər ki, Mehman aclıq keçirməyib və səhhətində heç bir problem yoxdur. Mehmanın saytlarda yerləşdirilən idmançıya məxsus görkəmi də onun aclıq keçirmədiyini təsdiqləyirdi. Mehman Hüseynovun müraciətinin araşdırılması üçün aidiyyəti orqanlara tapşırıq verən, ölkəmizdə demokratiyanın inkişafı üçün ciddi islahatlar aparan, insanların azadlıqlarının qorunmasını dövlət siyasətinin əsas amili kimi diqqətdə saxlayan Prezident İlham Əliyevin humanizmi və xeyirxahlığı nəticəsində, məsələ müsbət həll olundu. Ermənistanda isə siyasi mövqeyinin qurbanı olan, hakimiyyətə qarşı müxalif mövqedə dayanan siyasi məhbusun, jurnalistin ölümü təbii qəbul edildi. “Jurnalistin ölümü hakimiyyətin siyasi qətlidir” söyləyən erməni şərhçi Qarnika Qevorqyanın da səsi Avropa Parlamentinə “çatmadı”.

Ümumiyyətlə, Avropa Parlamentinin ölkəmizlə bağlı qəbul etdiyi son və həm də qərəzli qətnamə Azərbaycan kimi müstəqil siyasət yürüdən bir ölkəyə təzyiq vasitəsidir. Bu, həm də o Avropa Parlamentidir ki, onun üzvlərinin təmsil olunduqları ölkələrin bir çoxunun, məhz enerji təminatçısı Azərbaycan dövlətidir. Təbii ki, Avropa Parlamenti bir məqamı unudur ki, nəinki Cənubi Qafqazda, hətta MDB məkanında avropalıların ən çox ehtiyac duyduğu ölkə Azərbaycandır. Yəni Avpropa ölkəmizə nə qədər lazımdırsa, Azərbaycan da bir o qədər Avropaya gərəklidir. Çünki Azərbaycan qlobal enerji layihələrinin müəllifi olaraq, regionda əsas söz sahibidir.

Avropa Parlamentinin daha bir saxtakarlığı və ölkəmizə qarşı həyata keçirdiyi ikili standart siyasətinin nümunəsi, məhz Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyəti dövründə həbs edilən “Haynyus.am” saytının rəhbəri və “Erməni qartalları: Vahid Ermənistan Partiyası”nın sədr müavini Mger Yegiazaryanın “Nubaraşen” təcridxanasındakı ölümünə hələ də biganə qalmasıdır. Məlumatlara görə, bu media nümayəndəsinə təcridxanada ciddi psixoloji təzyiqlər göstrəilib və işgəncələr verilib.

Bu təşkilatın həmişə sərgilədiyi ermənipərəst mövqe hər kəsə məlumdur. Bu təşkilat haqqında, artıq belə bir qəti rəy formalaşıb ki, o, islamofobiya xəstəliyinə yoluxmuş və insan hüquqları məsələsini əsassız şəkildə bəhanə edərək, müsəlman ölkələrinə qarşı kampaniya aparmaq missiyasını yerinə yetirməklə məşğuldur. Ən dəhşətlisi isə odur ki, qurumun ermənipərəst dairələrin sifarişi ilə Azərbaycana qarşı hücumlarının ölkəmizdəki dağıdıcı müxalifət və onun nəzarətində olan mətbuat orqanları tərəfindən dəstəklənməsi bir daha onların antimilli mahiyyətindən xəbər verir.

Həmçinin, eyni ərazidə yerləşən respublikalarda baş verən hadisələri fərqli baxışdan dəyərləndirən AP-in gözlərinin qabağında, Fransada baş verən hadisələri də “görməməsi” bu təşkilatın bivec üzvlərdən ibarət formalaşdığını göstərir. Bu kimi antidemokratik mövqeyin nəticəsidir ki, Böyük Britaniyanın ardınca Almaniya və Fransa kimi dövlətlər də Avropa təşkilatlarında təmsil olunmaq istəmirlər. Qitə dövlətlərində məskunlaşan mühacirlərlə qeyri-insani rəftar edənlərə, terrorçulara dəstək göstərilir. Buna baxmayaraq qarşılıqlı tərəfdaşlığa, hörmət və ehtirama sadiq qalan Azərbaycan Avropa İttifaqına üzv dövlətlərlə strateji tərəfdaşdır. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti ölkəmizə qarşı ədalətsizlikləri və ikili standartları etiraf edirlər.

***“Səs” Analitik Qrupu***

## Donor böyrək xəstəsinin qardaşı olub

Respublika Müalicəvi Diaqnostika Mərkəzində cərrah-uroloq, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolanın rəhbərliyi ilə xəstə üzərində uğurlu böyrəkköçürmə əməliyyatı həyata keçirilib. Mərkəzdən AZƏRTAC-a verilən məlumata görə, əməliyyat olunan 26 yaşlı qadın xeyli vaxt idi ki, böyrək çatışmazlığından əziyyət çəkirdi. Donor xəstənin qardaşı olub. Xəstənin həyat yoldaşı donor olmağa razılıq versə də, qadının qardaşı öz böyrəyinin birini bacısına vermək qərarına gəlib. Cərrah Rəşad Şolanın dediyinə görə, transplantologiyada ən böyük problem donorluqdur: “Lakin xəstə elə bir ailədən idi ki, ailə üzvlərinin hamısı donor olmağa hazır idi. Düşünürəm ki, bu, çox təqdirəlayiq bir nümunədir. Belə ailədən örnək götürməyə dəyər!”.

## Azərbaycanlı tenor Paris Operasının səhnəsində

Fevralın 7-də azərbaycanlı tenor Yusif Eyvazovun Paris Operasının “Gaveau” konsert zalında konserti olacaq. AZƏRTAC xəbər verir ki, azərbaycanlı tenorla bağlı Operanın saytında ətraflı məlumat verilib. Konsertdə Yusif Eyvazov Sergey Rahmaninov, Pyotr Çaykovski, Qara Qarayev, Françesko Paolo Tisti, Stanislao Qastaldon, Cüzeppe Verdi, Salvatore Kardilo, Rodolfo Falvo, Ernesto Dö Kurtis, Jorj Bize, Ciakomo Puççini kimi məşhur bəstəkarların əsərlərini səsləndirəcək. Azərbaycanlı tenorunu pianoda Enrico Reggioli müşayiət edəcək.



**Təhmasib Novruzov**

## *Haylar enir, baylar qalxır*

Son vaxtlar erməni-hay aləmində ağıllı adamların sayı artmaqdadır. 100 ildən artıq bir müddətdə türkü özünün düşməni kimi qələmə verən və digər sərsəm ideologiyanın əsiri olan, keçmişi məlum olmayan bu tayfadan yeni-yeni dünyanı dərk edə bilən, bu yolun nə qədər təhlükəli olduğunu anlayan və cəsarət edib mətbuatda, sosial şəbəkələrdə fikirlərini açıq söyləyən adamların sayı artmaqdadır. Əlbəttə, bizim əkrəmlər, rüstəmlər kimi xalqını aşağılayıb, düşməni göylərə qaldırmırlar. Ancaq ən azı, həqiqətin gözünə baxmağa can atırlar ki, bu da ermənilərin eniş prosesinin sürətləndiyindən xəbər verən ciddi məqamlardandır. Ən son belə fikirləri ilə gündəmə gələn ukraynalı tədqiqatçı, tarixçi, erməni əsilli məşhur bloger Filipp Ekozyantsın ermənilərə müraciətindən kiçik bir hissəni xatırlatmaqla dediklərimin boş sözlər olmadığına oxucuları əmin etmək istəyirəm: “Əvvəlcə heç vaxt ermənilərin olmayan torpaqları tələb etməkdən əl çəkmələri lazımdır. Bizim bunun üçün nə hüquqi, nə də mənəvi cəhətdən heç bir haqqımız yoxdur. İkincisi, qondarma soyqırımından danışmağa və türk xalqını cinayətkar adlandırmağa son qoymaq lazımdır”. Biz həmişə balayanların, ağambekyanların, kaputikyanların və digər özünü erməni xalqının ziyalı-lideri adlandıranların dünyada ilk millət ermənilər olması və digər bütün xalqların onlardan törəməsi və bu kimi sərsəm ideoloji təbliğatının şahidi olurduq. Ancaq son illər ermənilərin həm Ermənistanda, həm də başqa ölkələrdə yaşayan, ağlı başında olan nümayəndələrinin ard-arda bu səpkili bəyanatlarının və müraciətlərinin teztez şahidi oluruq. Vaxtilə belə obyektiv fikir səsləndirən ermənilərə qarşı terrorlar baş verirdisə, indi bu halla da qarşılaşmırıq. Bu isə, o deməkdir ki, artıq ermənilərin enmə prosesi sürətlə gedir və bu enişin sonu ədalətin dinc yolla bərqərar olmasına imkan yaradır. Tarixin bütün dönəmlərində özlərini ən “ali millət” kimi tanıtmaq istəyən, türk dünyasına savaş açan bu xəstə təxəyyüllü millətin ideologiyasında gedən bu dəyişkliyin səbəbi nədir, görəsən? Zənnimcə, bunun üzərində düşünməyə dəyər. Şəxsən mənim düşünüb-daşınıb gəldiyim qənaət ondan ibarətdir ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bünövrəsi qoyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən zərgər dəqiqliyi ilə, müdrikliklə və qətiyyətlə həyata keçirilən dövlət siyasətimizin ən uğurlu nailiyyətlərindən biri də, məhz erməni-hay tayfalarının küncə qısılmasına yönələn prinsipial mövqenin uğurlu nəticəsidir. Azərbaycanın tam müstəqil bir dövlət kimi bütün sahələrdə sürətlə inkişafı, regionun şəriksiz lideri, dünyada söz sahibi olmasına rəğmən, ağalarına güvənib, müstəqil siyasət yürüdə bilməyən, işğalçılıq mövqeyindən geri çəkilmək istəməyən Ermənistanın dalana dirənməsi və bu dalandan xilas yolunun tapılmaması onları reallıqları dərk və qəbul etməyə vadar edir. Bu, istənilən siyasi düşüncəyə malik hər bir azərbaycanlını, hər bir türkü sevindirir və ardını səbrsizliklə gözləyir. Amma bütün uğurların müəllifi olan bir iqtidara özünü müxalifət elan edən içimizdəki çürük düşüncəli insanlar, deyəsən, buna sevinmir, əksinə, narahat olur. Təəccüblü deyil, 1990-cı ildə Moskvanın razılığı ilə Azərbaycandakı ermənilərə qarşı irimiqyaslı əməliyyatlara start veriləndə, bu gün də müxalifətdə olan o zamankı müxaliflər Erməni Ümummilli Hərəkatının lideri P.Ayrikyanla birgə Bəyanat imzaladılar ki, bu əməliyyatları erməni xalqına qarşı haqsızlıq hesab edirlər və dayandırılmasını tələb edirlər. 1992-ci ildə, yenə razılaşdırılmış rus hərbi qüvvələri ilə birlikdə Dağlıq Qarabağa yeridilən qüvvəni əməliyyatı dayandırmağa vadar edənlər, yenə bu gün də müxalifətdə olan o zamankı müxaliflər oldu. Yəni nə zaman erməni enirsə, bizim əzəli və əbədi müxalifətimiz qalxır ki, biz də varıq. İndi də, deyəsən, həmin ssenarini işə salmaq istəyirlər. Amma bu binəva əbədi müxalifət oyunçuları bir şeyi nəzərə almırlar ki, indi nə Azərbaycan o zamankı sahibsiz Azərbaycan deyil, nə xalq o zamankı ağı-qaradan seçməyi bacarmayan xalq deyil, nə də indiki iqtidar o zamankı özünə və xalqına arxalanmağı bacarmayan, qətiyyətsiz iqtidar deyil. Bunu anlasalar, erməni enişindən bu qədər həvəsə düşməzdilər. Ermənini endirən (oxu: sındıran) bir iqtidara qarşı qalxmaq, dolayısı ilə erməniyə dəstək verməkdir. Amma unudurlar ki, bu iqtidar erməniyə dəstək verən bəzi-bəzi iri dövlətləri endirib (oxu: sındırıb), xalqın dəstək vermədiyi bir müxalifəti endirmək (oxu: sındırmaq) onun əlində nədir ki?..

# Əli Kərimlinin gerçək simasızlığı ifşa olunur

## *“Üstündən illər keçəndən sonra bəlli oldu ki, məhz həmin illərdə Qərb təşkilatları “Azadlıq” qəzetinə yüz minlərlə dollarlıq qrantlar ayırırmış”*

***Əli Kərimlinin manipulyasiyaları bir deyil, iki deyil... Onlarla, yüzlərlədir. Ümumiyyətlə, onun özünəpərəstişlik üzərində qurduğu “siyasətinin” əsas qayəsi də budur ki, “lider”, yaxud “siyasi rəhbər” olaraq, tükənmiş AXCP sədri, hətta bir neçə illər öncə, hər hansı bir məsələ üzərində oynadığı oyunbazlığını bir müddət sonra təkrarlayır. Misal üçün, bu günlərdə bəlli olub ki, sosial şəbəkələrdəki trolları elə özünün tapşırığı ilə onun bir neçə il əvvəl çıxış etdiyi videosunu paylaşıblar. Daha dəqiq desək, Rusiya telekanallarına istinadən yayılan həmin süjetdə aparıcı Amerika Birləşmiş Ştatlarının Azərbaycana qarşı sərt davranacağından söz açır. Qeyd olunur ki, ABŞ Konqresinin Helsinki Komissiyasının rəyi ilə rəsmi Vaşinqton Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcək, yüksək ranqlı məmurların ölkəyə girişi qadağan olunacaq.***




Lakin aparılan araşdırma nəticəsində, məlum olub ki, “Milli Şura” və AXCP üzvləri tərəfindən “böyük şövqlə” yayılan həmin video 3 il əvvəl (!) efirə gedib və ötən müddətdə orada əks olunan iddialar özünü doğrultmayıb. Bu isə, sadəcə, gündəmdə qalmaq üçün növbəti manipulyasiyalardan biridir.

Ancaq bu da son deyil. Hələ də 19 yanvar mitinqi üzərində bleflər edən Kərimli hələ də öz köhnə küçə təfəkküründən çıxışlar edərək, bütövlükdə, Azərbaycan dövlətinin yürütdüyü siyasətə qarşı ən murdar iftiralarını atır, bununla “mən də varam” deyib, siyasi arenada var-gəl edir. Hələ də özünü “birləşmiş müxalifətin lideri” kimi ictimai rəyə zorla sırıyan Ə.Kərimli elə sanır ki, o, həqiqətən də, düşərgədə “bir nömrədir” və s. Fəqət, gəlin görək, hər hansı müsavatçı, ADP-çi, AXP-çi, KXCP-çi, “REAL”-çı və s. onu özünə “lider” hesab edirmi? Ümumiyyətlə, pul gücünə mitinq keçirib, bunu “ümumxalq narazılığı” kimi təqdim edən Kərimli, bütövlükdə, 2500-3000 nəfəri “Azərbaycan xalqının etirazı” kimi qiymətləndirirsə, buna onun haqqı çatırmı? Əlbəttə ki, yox!

O da, sirr deyil ki, hətta bütün müxalifət partiyalarını bir araya sığışdırsaq belə, onların öz tərəfdarları ilə bir yerdə aksiyalara qatılacaqları halda, “Məhsul”u doldura bilməyəcəkləri bəri başdan görünür. Bu isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, Ə.Kərimli və başına topladığı bitmiş siyasətçilərin ardınca, elə ən yaxşı halda, bu qədər adamın getməsi normaldır.

Beləliklə, 19 yanvar mitinqinin görüntüləri ilə bağlı manipulyasiya cəhdləri də gözümüzdən qaçmadı. Əli Kərimlinin “təbliğat aparatı”, görüntüləri elə çəkib təqdim etməyə çalışdı ki, guya stadionda basabasdır, boş yer yoxdur. Amma indiki alternativ imkanlar şəraitində bunun əks-effekt verəcəyini, görünür, hesablaya bilməyiblər. Onu da qeyd etmək yerinə düşərdi ki, Ə.Kərimlinin yanında olub, onun yolunda başından belə keçməyə hazır olan, amma sonra ondan uzaqlaşmağa məcbur qalanlar yaxşı bilirlər ki, bu ünsür ən yaxın ətrafına, yumşaq desək, həmişə arxa çevirib. Onun yolunda baş qoymağa hazır olan, bunu əməllərində dəfələrlə sübut edən insanları ən çətin günlərində ortalıqda buraxaraq, yalnız öz mənafeyini düşünüb. Ona görə də, Əbülfəz Elçibəyin vəfatından sonra AXCP-də böyük yarpaq tökümü, ardından da, ümumiyyətlə, ağlı başında olanların oradan uzaqlaşması prosesi başlamışdı.

### Onu tanıyan hər kəs bilir ki, yalnız öz xisləti üzündən bu günə düşüb

Bir zamanlar sıralarında dünyaca məşhur alimlərin, siyasət adamlarının, fəal media təmsilçilərinin, perspektivli gənclərin toplaşdığı Əli Kərimli AXCP-si bu gün suyu qurumuş dəyirman kimidir. Ona görə də, özünün var olduğunu, hələ də ayaqda dura bildiyini göstərmək, görüntü yaratmaqdan ötrü, hətta ideoloji düşməni sayılan İran uzantılarıyla birlikdə Qərbin demokratiya dəyərləri uğrunda “mübarizə” aparır.

Niyə bu günə düşdü bu adam? Onu tanıyan hər kəs bilir ki, yalnız öz mənfur xisləti üzündən.

Azər Həsrət: “Əli Kərimlinin cibində 4 min dollar pul ola-ola, 200 dollar dərmanpulu istəyən cəbhədaşına “cibimdə bir qəpiyim də yoxdur” deyib”

Bu arada, vaxtilə əks-düşərgədə təmsil olunan Azər Həsrətin bir xatırlatmasını yada salmaq yerinə düşərdi. “1990-cı illərin əhvalatıdır. Adlar bəlli olsa da, heç birini qeyd etmək istəmirəm. Yəni bu məsələdə adı keçə biləcək şəxslər yetərincə ləyaqətli siyasi fəallardır və onların bunu arzu etməyəcəyini düşündüyüm üçün adsız yazıram” deyə xatırladan A.Həsrət əlavə edib: “Əli Kərimli Xaqani 33-dəki otağındaykən, onun yaxın ətrafındakı adamlardan biri də otaqdaymış. Bu zaman başqa birisi içəri daxil olub Kərimliyə düz 4 min dollar pul verir. O dövrlər üçün böyük pul sayılan bu məbləği Əli Kərimli alıb sakitcə cibinə qoyur. Pulu gətirən otaqdan çıxdıqdan sonra partiya rəhbərliyində təmsil olunan başqa bir şəxs içəri daxil olur. Adamın uşağı xəstəymiş, ehtiyacı varmış. Kərimlidən 200 dollar pul istəyir. Aldığı cavaba inanıb, otaqdan çıxır. Kərimli deyir ki, cibimdə bir qəpik də pul yoxdur. Bayaqdan olanları seyr edən digər partiya yoldaşı, sözün həqiqi mənasında, şok olur. Çünki az öncə, məhz onun gözü qarşısında Kərimliyə 4 min dollar verilmişdi. İki yüz dollar istəyən də təsadüfi adam deyildi, Əli Kərimlinin ən yaxın mübarizə arxadaşı idi...

Bir də mənim “Azadlıq” qəzetində işlədiyim dönəmlərin (1998-2005) gerçəkləri var. Hər keçən gün qəzetdə durum gərginləşirdi. İşçilərə maaş, qonorar vermək probleme dönmüşdü. Aylarla pul ala bilməyən jurnalistlər, sözün həqiqi mənasında, dözülməz vəziyyətdə idilər. Pul istəyəndə, deyilirdi ki, yoxdur. Səbəb kimi də, hakimiyyətin “Azadlığ”ı sıxışdırması üzündən qazanc əldə edə bilməmələri göstərilirdi. Biz də inanırdıq. Çünki ürəkdən bağlı olduğumuz siyasi cəbhədə bizi kiminsə aldadacağını, bizdən belə istifadə edəcəyini ağlımıza belə gətirə bilmirdik. Amma üstündən illər keçəndən sonra bəlli oldu ki, məhz həmin illərdə Qərb təşkilatları “Azadlıq” qəzetinə yüz minlərlə dollarlıq qrantlar ayırırmış. Ancaq o pullardan bizim heç xəbərimiz belə olmayıb...

Üçüncü bir olaysa birbaşa özümlə bağlıdır. 2005-ci ilin parlament seçkilərində “Azadlıq” blokunun vahid namizədi kimi 56 saylı Xaçmaz kənd seçki dairəsində çox səs gətirən bir kampaniya aparmışdım. Varlı adam olmasam da, əlimdəki bütün pullarımı xərcləmişdim. Seçki bitmiş, bizim cəhdlərimiz əbəs olmuşdu. Çünki güvəndiyimiz siyasi qüvvələr mənim kimi neçə-neçə insanın ümidlərini bəlkə də hakimiyyətlə hansısa özlərinə bəlli olan sövdələşmənin güdazına vermişdilər. Lakin sözüm bunda deyil. Sözüm ondadır ki, Əli Kərimlinin dəstəsi həmin ilin dekabrında “Azadlıq” qəzetindəki otağımı iki günün içində əlimdən aldı. Özü də ultimativ şəkildə mənə dedilər ki, təcili otağı boşalt. Açığı, əvvəl bunun bir zarafat olduğunu sandım. Amma sonra gerçək olanda, barmağımı dişlədim. Əli Kərimli ən pis günümdə mənim üçün o günlərdə qaranlıq qalan səbəblərdən, arxadan zərbə vurmuşdu. Sonrakı illərdə bunun səbəbini öyrənməyə çalışdım. Hətta onun yaxın ətrafındakı adamlardan söz salıb bunun niyə baş verdiyini öyrənməyi də xahiş etdim. Cavab gəldi ki, “Azər Həsrət icarə haqqını ödəyə bilmədiyi üçün otaqdan çıxarılıb”. Gülüş doğuracaq bir cavabdı. Çünki məni “Azadlıq” qəzetinə, elə Əli Kərimlinin özünə də hansısa “icarə haqqı” bağlamırdı. Biz bir siyasi cəbhədə idik və mən o dönəmlərdə bu adamı özümə lider kimi qəbul edirdim, onun yolunda, sözün bütün anlamlarında, canımı belə fəda edəcək qədər ürəklydim. Bu adamsa, hələ də özünə bəlli olan səbəblərdən, bir çoxları kimi məni də yelə verdi o günlərdə...

Buna baxmayaraq, uzun illər susdum, Əli Kərimli və partiyasına qarşı heç bir fikir söyləmədim. Heç indi də söyləmirəm. Sadəcə, bu olanları ona görə yazıram ki, bir zamanlar bizim bu adama aldandığımız və güvəndiyimiz kimi indi də bəzi gənclər bu adamın arxasınca gedə bilər. Gedərlər və özlərini heç nəyin uğrunda xərcləmiş olarlar. Aldanmasınlar deyə yazdım bu yazını.

Siyasətdə tükənmiş Əli Kərimlinin “mitinq kontoru”nda rol alan digər şəxslər - Cəmil Həsənli və Gültəkin Hacıbəyli haqqında isə bilərəkdən heç nə yazmıram. Zatən, o dərəcədə tükənmişlər ki, son sığınacaq yeri kimi, Əli Kərimlinin yan-yörəsini seçmişlər. O yan-yörənin də nə halda olduğu gün kimi aydındır...”

Beləliklə faktlar ortadadır və AXCP sədrinin simasızlığının ifşasını biz deyil, onunla illərdir bir yerdə addımlamış insanlar edirlər. Yəqin ki, biz belə ifşaların hələ çox şahidi olacağıq...

**Rövşən RƏSULOV**

## “Nar”-ın “Qutu” təklifindən istifadə edənlərin sayı 2 dəfə artıb




Ölkənin ən gənc və innovativ mobil operatoru “Nar”-ın abunəçilər üçün ev və mobil xidmətlərini bir yerdə təqdim etdiyi “Qutu” istifadəçilərinin sayı sürətlə artmaqdadır. Belə ki, 1 il ərzində “Qutu” istifadəçilərinin sayı 2 dəfə çoxalıb. Artıma səbəb yüksəkkeyfiyyətli xidmət, sərfəli qiymət və təklif, əhatə dairəsinin geniş olması, eyni zamanda müştərilərlə mütəmadi ünsiyyətin qurulmasıdır.

Qeyd edək ki, “Qutu” ev üçün fiber-optik internet, rəqəmsal TV və mobil rabitə üçün ölkədaxili bütün istiqamətlərə danışıq dəqiqələri təqdim edir və mobil internet xidmətlərini birləşdirir. “Qutu” təklifinə qoşulanlar yalnız innovativ xidmətlərdən yararlanmır, eyni zamanda xərclərinə və vaxtına qənaət edə bilirlər. Bundan başqa, istifadəçilər rabitə xərclərini 50%-dək azaldırlar.

“Qutu” təklifi abunəçilərin istək və tələblərini nəzərə alaraq 5 müxtəlif paketdən ibarətdir. “Nar” müştərilərə 50-si HD olmaqla 240-dan çox telekanal izləmək, fiber-optik texnologiya üzərindən yüksəksürətli internet, ölkədaxili danışıq dəqiqələri, mobil internet və SMS bonusları təqdim edir. “Qutu” istifadəçiləri qeyd edilən bütün xidmətlər üçün yalnız bir operatora ödəniş edirlər. Bundan başqa, “Qutu” təklifinə qoşularaq, öncədən ödəniş etmək istəyənlər rəqəmsal TV və internet xidməti üçün lazım olan TV-tüner və Wi-Fi ruterini pulsuz əldə edə bilir.

Qeyd edək ki, “Qutu” Azərbaycanın rabitə bazarında fiber-optik internet, rəqəmsal TV və mobil rabitə xidmətlərinin bir paketdə təqdim edildiyi ilk təklifdir. “Qutu” təklifi “Nar” və “CityNet” provayderi tərəfindən təqdim olunur. Təkliflərdən yararlanmaq, əhatə dairəsi haqqında məlumat almaq və onlayn sifariş üçün qutu.nar.az saytına daxil olmaq yetərlidir. Müştərilər “Qutu” xidmətinin özəl müştəri xidmətlərindən də yararlana bilirlər. Müştəri xidmətləri ilə əlaqə saxlamaq üçün “Nar” nömrələrindən 771, stasionar telefonlardan isə (012) 444 07 71 nömrəsinə zəng etmək kifayətdir.

# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA - AZƏRBAYCAN QADINININ ADINI DAHA DA UCALARA QALDIRAN ŞƏXSİYYƏT

***Ötən əsrin ikinci yarısında öz nurlu əməlləri ilə Azərbaycan qadınının adını daha da ucalara qaldıran şəxsiyyətlər sırasında bir ad da var - Zərifə xanım Əliyeva. Samir Mustafayev yazır:" Mənalı ömür yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı insanlıq üçün mənəviyyat, kamillik və müdriklik örnəyi olan Zərifə Əziz qızı Əliyeva milyonların qəlbində özünə əbədi yer qazandırmışdır. Tibbin mühüm sahəsi olan oftalmologiya elmi sahəsində uzun illər dəyərli tədqiqatlar aparan, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti, qələminin qüdrəti ilə elmin ən uca mərtəbələrini fəth edən Zərifə Əliyeva görkəmli alim, müəllim və ictimai proseslərdə fəal Azərbaycan qadını kimi milli elm tarixinə sanballı möhürünü vurmuşdur.***

Yüksək yaradıcılıq duyumu ilə fərqlənmək qabiliyyətini, ilk növbədə, insanın kamillik səviyyəsi, şəxsi ləyaqət hissi və sağlam həyat tərzi dünyaya gətirir. Filosoflar əsrlər boyu böyük şəxsiyyətlərin həyat qayəsini açmağa çalışaraq, son nəticədə, bu qənaətə gəlmişlər ki, başlıca tərbiyəvi faktor bu fenomenal insanların formalaşdığı mühitdir. Görkəmli oftalmoloq Zərifə Əliyeva çox nəcib bir ailədə - ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Yüksək vətəndaşlıq ruhunun daşıyıcısı olmuş Əziz Əliyev ictimai məsuliyyətini dərindən dərk edən ziyalı olaraq daim xalqına, dövlətinə ləyaqətlə xidmət etmiş və övladlarını da bu ruhda böyüdüb ərsəyə çatdırmışdır. Mərhum akademik M.Topçubaşov Əziz Əliyevi təkcə görkəmli tibb xadimi deyil, həm də "cəmiyyəti müalicə edən həkim" hesab edirdi.

Zərifə xanımın anası Leyla xanım da Azərbaycan qadınına xas olan bütün nəcib keyfiyyətləri xarakterində cəmləşdirmişdi. Həyat tərzinə görə çox sadə davranmağı sevən bu xanım övladlarına da təvazökarlıq mədəniyyəti aşılamışdı.

Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuş Zərifə Əliyeva orta məktəb illərindən yüksək zəkası, bilik və bacarığı, istedadı ilə fərqlənmiş və gələcək həyat yolunu düzgün müəyyənləşdirmişdir. İnsanlara şəfqət və mərhəmət arzusu ilə həyatını tibb elminə bağlamaq istəyini qətiləşdirərək, O, 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində peşəkar həkim kimi yetişməyi qarşıya məqsəd qoyan Zərifə Əliyeva bu istəyinə doğru əzmlə irəliləmişdir. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə xanım fitri istedada, dərin zəkaya, geniş dünyagörüşə və yüksək mədəni səviyyəyə malik bir tələbə idi. O, tibbi fənlərlə yanaşı, digər fənlərin də tədrisinə eyni dərəcədə maraq göstərir və hərtərəfli biliyə malik həkim kimi formalaşırdı.

Hələ tələbəlik illərindən tibb elminin öyrənilməsinə böyük həvəs göstərən Zərifə Əliyeva təhsil ocağında keçirilən tələbə-elmi toplantılarında məruzələrlə çıxışlar edir, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq, tanınmış alimlərlə fikir mübadiləsi aparırdı. Müasirləri və həmyaşıdları Onu həm də gözəl musiqi bilicisi kimi tanıyırdılar. Çünki O, hələ orta məktəbdə oxuyarkən, paralel olaraq musiqi təhsili də almışdı; fortepianoda ifası qəlbləri riqqətə gətirirdi."

"Akademik Zərifə xanım Əliyeva. Yüksək əqidə" kitabında yazılır: "Zərifə Əliyevanın bütün varlığı ilə göz həkimliyinə - oftalmologiya elminə bağlanması, ilk növbədə, dövrün gerçəkliklərindən irəli gələn sosial-mənəvi tələbat idi. Həmin dövrdə Azərbaycanda görmə orqanını zədələyən, ağır fəsadlara, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılsa da, ona qarşı təsirli üsullar, demək olar ki, yox idi. Ona görə də, bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə məsələsi təkcə oftalmologiya elminin deyil, bütövlükdə, respublika səhiyyəsinin qarşısında vacib problem kimi dururdu. Belə bir zamanda, Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilinə və həyata keçirilməsinə fəal dəstək verirdi. Konkret müalicə təcrübəsindən əlavə, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə tədbirlərində yaxından iştirak edirdi. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəlikləri, o cümlədən, gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib-hazırlamaq da ciddi tələbata çevrilmişdi. Zərifə xanım nursuz gözlərə işıq paylamaq, Günəşin, Ayın hüsnünə, təbiətin çoxçalarlı rənglərinə, füsunkar gözəlliyinə həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusunda idi ".

Məhz bu ülvi arzu Onu Moskva şəhərinə aparmış, Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına mükəmməl şəkildə yiyələnmişdir. Kursu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra vətənə dönərək, 1949-cu ildən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1950-ci ildə isə aspiranturaya daxil olaraq, praktik- həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirmişdir. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib-hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini, məhz traxoma xəstəliyinin müalicəsinə həsr etmişdir.

Dünya Səhiyyə Təşkilatının həmin dövr üçün məlumatında dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində, 80 milyondan çox insanın kor olduğu bildirilirdi. O vaxt traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək güclü təsirə malik dərman preparatları da mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi-siyasi durumu qənaətbəxş olmadığından, ümumi vəziyyətin nikbin qiymətləndirilməsinə əsas verən hansısa amil yox idi. Belə bir vəziyyətdə qətiyyən ruhdan düşməyən Zərifə Əliyeva elmi axtarışlarını davam etdirmiş, əsl vətəndaş mövqeyində dayanaraq, ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq, həyata keçirməyə başlamışdır. İşin çətinliyinə, məsuliyyətinə baxmayaraq, tezliklə bu sahədə böyük nəticələr əldə etmişdir. İstedadlı tədqiqatçı traxomanın müalicəsində, o dövrün güclü antibiotiklərindən hesab edilən sintomisindən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdur.

Zərifə Əliyeva araşdırma apardığı elmi istiqamətlər üzrə işlərin nəticələrinə əsasən, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu üzrə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. Onun təklif etdiyi müalicə metodunun tezliklə respublikada tətbiqinə başlanılmış, beləliklə, ciddi bir göz xəstəliyinin həllində əsaslı dönüşə nail olunmuşdur. Bu baxımdan, dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

Görkəmli alim oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə də sanballı tədqiqatlar aparmış, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm nəticələr əldə etmişdir. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin, müntəzəm olaraq, mətbuatda dərci klinik göz xəstəliyi sahəsində çalışan həkimlər üçün əhəmiyyətli istinad mənbəyi olmuşdur. Böyük alimin tədqiqatlarının mühüm bir istiqamətini də oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası təşkil etmişdir. Həmin dövrdə problemin aktuallıgı yalnız kimya və elektronika sənayesinin sürətli inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunmaması ilə şərtlənirdi. 1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə bu problemlə məşğul olmağa başlamış, peşə ilə ələqədar əmələ gələn göz xəstəliklərinin araşdırılmasına xüsusi maraq göstərmişdir. Eyni zamanda, yod sənayesi, neft-kimya müəssisələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən amilləri geniş tədqiq etmişdir.

Tədqiqatçılıq həvəsi yüksək olan alim problem üzərində işləyərkən, çox vaxt, bilavasitə sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirirdi. Bununla yanaşı, Bakı və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən, şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində, alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov xatirələrində yazır: "O, tibb elmi sahəsində elə tədqiqatlar aparırdı ki, fikrimcə, burada vəziyyət bir qədər paradoksal şəkil almışdı... Bizim zəmanədə tam dəyərli əmək fəaliyyəti üçün görmə vəziyyətinin yaxşı olması, nəinki çox vacibdir, həm də müasir cəmiyyətdə ona tələbat ildən-ilə artır. Bununla yanaşı, indiyə qədər həmin mövzuya həsr olunmuş ümumiləşdirilmiş elmi əsərlər yoxdur, yalnız ayrı-ayrı fraqmentlər mövcuddur ki, bunlar da elmi sistemdən, hələ ki, çox uzaqdır. Zərifə Əziz qızı kimi sosial həssaslığa malik olmaq lazım idi ki, öz istedadını olduqca çətin, mürəkkəb və xeyirxah, eyni zamanda, heç də həmişə layiqincə qiymətləndirilməyən bir məsələnin xidmətinə sərf edəsən".

1960-1967-ci illərdə Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə Əliyeva elmi təşkilatçılıq qabiliyyəti ilə fərqlənmişdir. Tədqiqatçı-alim göz xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının düzgün təşkili ilə yanaşı, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini daim ön plana çəkirdi. Respublikanın müxtəlif şəhər və rayonlarında zərərli iş şəraitinin törətdiyi göz xəstəliklərini, eləcə də, insan orqanizminin digər xəstəliklərini aşkar edir, həm onların müalicəsinə, mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirirdi. Zərifə xanım peşə amillərinin törətdikləri göz xəstəliklərini və bütövlükdə, orqanizmi tam şəkildə müalicə etməklə, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin, təşkilatçı alim-ekoloq kimi də şöhrət qazanmışdır.

***Vahid Ömərov,***
***fəlsəfə yzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Amerikalı rejissor yenidən kinoya qayıdır



Amerikalı rejissor Zak Snayder yeni film çəkməyə qərar verib. Bu barədə "The Hollywood Reporter"da bildirilir. Qeyd edilir ki, ailəsində baş verən faciədən sonra Snayder "Neflix" şirkəti üçün zombilər barədə "Ölülər ordusu" ("Army of the Dead") adlı trillerin çəkilişləri ilə məşğul olacaq. Rejissor pultu arxasında oturacaq Snayder, həmçinin həyat yoldaşı ilə birgə ekran əsərinin prodüseri rolunda da çalışacaq.

## Albrext Dürerin qravürü hərracda 612 min dollara satılıb



Albrext Dürerin (1471-1528) "Apokalipsisin dörd atlısı" qravürü Nyu-Yorkda "Christie's" hərracında 612 min dollara satılıb. TASS informasiya agentliyi xəbər verir ki, ABŞ-ın Sakit okean sahillərində şəxsi kolleksiyada saxlanılan bu əsər 1497-1498-ci illərdə yaradılıb. Qravür ilkin qiymətləndirmədən, demək olar, iki dəfə baha satılıb.

Həmçinin hərracda Martin Şonqauerin (1445-1491) "Müqəddəs Məryəmin ölümü" əsəri 492 min dollara satılıb. Əsər 1470-1474-cü illərdə yaradılıb. XV əsr naməlum alman rəssamın "Aynzidelnin madonnası" qravürü isə 372 min dollara satılıb.

## "Leyli və Məcnun" operası növbəti dəfə nümayiş olunacaq



Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında özünəməxsus yer tutan "Leyli və Məcnun" operasına teatrsevərlər növbəti dəfə fevralın 27-də baxa biləcək. Teatrdan AZƏRTAC-a bildirilib ki, teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluşunda izləniləcək səhnə əsəri dirijor, Əməkdar incəsənət xadimi Sevil Haciyeva tərəfindən idarə olunacaq. Operada Məcnun obrazını Səbuhi İbayev, Leylini isə Xalq artisti Gülyaz Məmmədova canlandıracaq.

Qeyd edək ki, müsəlman Şərqində ilk opera sayılan "Leyli və Məcnun" dahi bəstəkar Üzeyir Hacıbəyli tərəfindən 1908-ci ildə qələmə alınıb. Opera elə həmin ilin yanvarın 12-də ilk dəfə səhnəyə qoyulub. Ölməz bəstəkarın bu ölməz əsəri 110 ildir ki, Opera və Balet Teatrının repertuarındadır.

## "Neftçi" Dario Frederikonu Koreya klubuna satdı




"Neftçi"nin futbolçusu Dario Frederiko Cənubi Koreyanın "Daequ" klubuna keçib. Bu barədə paytaxt klubunun klubun rəsmi saytı xəbər yayıb.Braziliyalı yarımmüdafiəçi Türkiyənin Antalya şəhərində keçdiyi təlim-məşq toplanışının sonuncu günündə ona meneceri vasitəsilə başqa klubdan sərfəli təklif gəldiyini bildirib. Daha sonra tərəflər arasında bununla bağlı danışıqlar başlayıb. "Neftçi" tələb etdiyi kompensasiya "Daequ" klubu tərəfindən ödənildikdən sonra braziliyalı futbolçunun keçidinə icazə verilib.

## Robin van Persi Hollandiyada 2018-ci ilin ən yaxşı idmançısı seçilib



Futbol üzrə Hollandiya millisinin və "Feyenord" klubunun hücumçusu Robin van Persi ölkəsində 2018-ci ilin ən yaxşı idmançısı seçilib. Belə ki, 35 yaşlı hücumçu Hollandiya İdman Mətbuatı Təşkilatı (NSP) tərəfindən "2018 ilin idman şəxsiyyəti" mükafatına layiq görülüb. Hücumçu cari mövsümdə "Feyenord" klubunun heyətində 20 oyunda 12 qol vurub. O, Hollandiya millisinin forması ilə meydana çıxdığı 100 oyunda 51 dəfə fərqlənib.

## "Bavariya"nın hücumçusu Çin klubuna transfer olunub




"Bavariya"nın hücumçusu Sandro Vaqner Çinin "Tyancin Teda" klubuna transfer edilib. Klubun "Twitter" səhifəsinə istinadla xəbər verir ki, 31 yaşlı almaniyalı hücumçu Çin təmsilçisi ilə 2020-ci ilin dekabrınadək qüvvədə olan müqavilə imzalayıb. Çin klubu Sandro Vaqner üçün 5 milyon avro ödəyib. Xatırladaq ki, futbolçu cari mövsümdə Münxen təmsilçisinin heyətində 12 oyunda bir qol vurub.

## PSJ Neymarla bağlı açıqlama yayıb




PSJ zədəli futbolçusu Neymarın durumu ilə bağlı məlumat yayıb.Klubun rəsmi saytında braziliyalı hücumçunun əməliyyat olunmayacağı bildirilib. Ancaq onun zədəsinin ciddi olduğu və bərpa müddətinin az olmayacağı qeyd olunub. "Sambaçı" 2.5 ay yaşıl meydanlardan uzaqda qalacaq. Xatırladaq ki, Neymar Fransa kubokunun 1/16 finalında "Strasburq"a qarşı matçda zədələnib. Onun sağ ayağında sınıq aşkarlanıb.

## Stolüstü tennisçilərimiz Rusiyada keçiriləcək beynəlxalq turnirdə iştirak edəcəklər



Fevralın 1-də Rusiyanın Voljsk şəhərində 2006-cı il təvəllüdlü və daha aşağı yaşlı stolüstü tennisçilər arasında beynəlxalq turnir keçiriləcək. Azərbaycan Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, yarışlarda ölkəmizi məşqçi Ramil Cəfərovun rəhbərliyi ilə dörd idmançı təmsil edəcək. Qızların yarışında Fatimə Cəfərova və Mehriban Dadaşova, oğlanların mübarizəsində isə Hacımurad Məmmədbəyov və Xaliq Becanov qüvvələrini sınayacaqlar. Turnir iki gün davam edəcək.

## ELAN

**Bakı şəhər Yasamal rayonu Ə.Əhmədov (Talıblı) küçəsi ev 32, mənzil 53-də yaşayan Cəfərova Arzu Şahmalı qızının adına verilmiş seriya AZE № 19134481 şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**